RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 191 (9070) ÇƏRŞƏNBƏ AXŞAMI, 6 sentyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Avropanın etibarlı tərəfdaşı

"Bizim sözümüzün imzamız qədər qüvvəsi var". Prezident İlham Əliyevin sentyabrın 2-də İtaliyada "İl Sole 24 Ore" qəzetinə müsahibəsi zamanı söylədiyi bu cümlənin ifadə etdiyi məna bütövlükdə Azərbaycanın xarici siyasətinin, beynəlxalq münasibətlərdəki mövqeyinin, əlaqələri olan hər bir dövlət və təşkilatla əməkdaşlığının məzmununu və qayəsini təşkil edir. Azərbaycanla münasibətlərdə obyektiv baxış prizmasından çıxış edən siyasi və iqtisadi dairələr də həmişə bunu xüsusi qiymətləndiriblər.

### Aİ Azərbaycanla əməkdaşlığa yüksək dəyər verir

Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üçün başlanmış "Brüssel prosesi"nin obyektiv gedişatı da Azərbaycan dövlətinə və onun rəhbərinə etibarlı tərəfdaşlıqdan irəli gələn ehtiramın nümunəsidir. "Brüssel prosesi"ndə Avropa İttifaqının ortaya qoyduğu mövqe və yanaşma bu təşkilatla Bakı arasındakı strateji tərəfdaşlığa da mütənasibdir.

Azərbaycan-Aİ münasibətləri müxtəlif sahələr üzrə sıx və etibarlı tərəfdaşlığa əsaslanır. Bunu ilk olaraq iqtisadi sferadakı rəqəmlərdən də görmək olar. Belə ki, Aİ 700-dən çox şirkət ilə ölkəmizdə ən böyük investordur. İnvestisiyaların həcmi isə on milyardlarla dolları ötür.

Enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq isə ikitərəfli münasibətlərin nüvəsini təşkil edir. Azərbaycanın başlatdığı və Avropa İttifaqının dəstəklədiyi enerji layihələri Avropanın enerji xəritəsinə ciddi dəyişikliklər edib. Artıq il yarımdır ki, "Cənub qaz dəhlizi" tam gücü ilə işləyir və Azərbaycanın Xəzərdən hasil etdiyi təbii qaz Avropa bazarlarına çatdırılır.

→ 3

# Brüssel görüşü sülh danışıqlarına yeni impuls verdi

### Bütün proseslər Azərbaycanın maraqlarına uyğun həyata keçirilir

Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel üçtərəfli görüşdən sonra verdiyi bəyanatda müzakirə olunmuş məsələlər üzrə konkret fikirlərini səsləndirərək dedi ki, sülh müqaviləsinin irəliləməsi istiqamətində substantiv işin sürətləndirilməsi ilə bağlı hər iki ölkənin xarici işlər nazirlərinə layihə mətnlərinin hazırlanması üçün bir ay ərzində görüşmək barədə tapşırıq verilib. Həmçinin humanitar məsələlər, eləcə də minaların təmizlənməsi, saxlanılan və itkin düşmüş şəxslərin taleyi barədə ətraflı müzakirələr aparılıb və qeyd edilib ki, Avropa İttifaqı bu məsələlərlə məşğul olmaqda davam edəcək.

→ 5

# Azərbaycan Avropanın əsas enerji təminatçılarından birinə çevrilir

İtaliya və Azərbaycan arasında əlaqələr uzun illərdir davam edir. Bu dövr ərzində Azərbaycan İtaliyanın əsas neft və neft məhsulları təchizatçısına çevrilməklə yanaşı, həm də bu ölkənin Cənubi Qafqazda əsas ticarət tərəfdaşıdır. Bunu ildən-ilə artan ticarət dövriyyəsində də görmək mümkündür. Eyni zamanda Azərbaycan hazırda Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında böyük rol oynayır. 2020-ci ilin sonundan etibarən Azərbaycan TAP layihəsi əsasında İtaliyaya qaz da uxrac edir. Bir il yarım ərzində İtaliyaya 11,7 milyard kubmetr qaz ixrac olunub, bu il isə qazın həcminin artırılması planlaşdırılır.

Bu il Azərbaycan və İtaliya arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyi qeyd olunur. Məhz bu dövrdə iki ölkə arasındakı münasibətlərin yüksələn xətlə inkişafı siyasi ekspertlər tərəfindən də yüksək qiymətləndirilir.

→ 3

# Ermənistan riyakarlığından əl çəkmir

### İşğalçı ölkə öhdəsinə götürdüyü müddəaları yubatmağa yönəlik mövqe nümayiş etdirir, ard-arda təxribatlar törədir

Laçında aşkarlanan xeyli sayda piyada əleyhinə minalar da bu ölkənin 10 noyabr üçtərəfli razılaşmasına münasibətdə riyakarlığını və üzərinə götürdüyü öhdəlikləri pozduğunu göstərir.

Müdafiə Nazirliyi və Minatəmizləmə Agentliyinin beynəlxalq humanitar hüquqa zidd olaraq Laçında aşkarlanan PMN-G növlü minalarla bağlı birgə bəyanatında da məlumat verilir ki, Laçın rayonu ərazisində piyada əleyhinə mina sahələrindən cari ilin 15 avqustundan 31 avqustunadək 1318 ədəd PMN-E növlü minalar aşkar edilib. Aşkar olunan minalar Vətən müharibəsindən sonra, yəni 2021-ci ildə Ermənistanda istehsal olunan minalardır.

→ 5

# Prezident İlham Əliyevin İtaliyaya səfəri bu ölkə mətbuatının diqqət mərkəzində olub

Prezident Sercio Mattarella və Nazirlər Şurasının Sədri Mario Dragi ilə keçirilmiş görüşlərlə bağlı İtaliya Prezidentinin və Nazirlər Şurasının Mətbuat xidmətlərinin məlumat və videoreportajları "La7", "il Messaggero", "İl Sole 24 Ore", "Affari Italiani", AGI", "Agenzia Nova", "Libero Quotidiano", "Borsa Italiana", "Italpress", "Italia Informa", "Notize Yahoo", "Tg cal24", "La Sicilia", "Mi-lorenteggio", "Gazzetta di Parma", "L'Edicola del Sud", "Blog Sicilia", "Audio press", "Giornale Partite Iva" kimi mətbuat orqanları da daxil olmaqla bu ölkənin çoxsaylı kütləvi informasiya vasitələrində yayımlanıb.

→ 4

# Sosial güvənliyin əsas şərti

**Cari ilin birinci yarısında ölkədə 33,5 min yeni iş yeri açılıb**

Yeni iş yerlərinin 92 faizi qeyri-dövlət sektorunda açılıb. Yaradılan iş yerlərinin regionlar üzrə bölgüsü də maraq doğurur. Belə ki, iş yerləri təkcə paytaxtda və iri şəhərlərdə deyil, bütün bölgələrdə açılır. Məsələn, yarım ildə açılan yeni iş yerlərinin 81,1 faizi Bakı şəhərinin payına düşsə də, 0,4 faizi Naxçıvan Muxtar Respublikasında, 18,5 faizi digər regionlarda yaradılıb. Regionlarda açılan iş yerlərinin 3,9 faizi Abşeron-Xızı, 2,6 faizi Şəki-Zaqatala, 2,1 faizi Gəncə-Daşkəsən, 2 faizi Quba-Xaçmaz, 2 faizi Şirvan-Salyan,1,2 faizi Lənkəran-Astara, 1 faizi Qarabağ, 1 faizi Qazax-Tovuz, 0,9 faizi Mərkəzi Aran, 0,8 faizi Mil-Muğan, 0,6 faizi Dağlıq Şirvan və 0,4 faizi Şərqi Zəngəzur iqtisadi rayonlarındadır.

→ 6

# Koronavirus təhlükəsi sovuşmaq bilmir

### Ötən həftə dünyada 4,5 milyondan çox insan yoluxub, 13 mindən çox adam ölüb

ABŞ-ın Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzlərinin direktoru Roşel Valenski bildirib ki, koronavirusdan qorunmaq üçün "buster" dozada yeni hazırlanmış peyvəndlərdən istifadə olduqca əhəmiyyətlidir: "Belə ki, bu vaksin həm də virusa qarşı zəifləmiş immun sistemini yenidən bərpa etməyə kömək edir. Həmçinin "Omikron" və onun yeni variantlarına qarşı da qoruma gücünə malikdir. Nəzərə almaq lazımdır ki, bu peyvənd hərtərəfli elmi qiymətləndirmə, tədqiqat və müzakirələrdən sonra ictimaiyyətə təqdim edilib".

→ 7

# Paşinyandan keçmiş hərbi xuntaya növbəti zərbə

### Mikael Arzumanyanın həbsi Ermənistanda böyük rezonans doğurub

Polkovnik Arzumanyan 2014-cü ildə general rütbəsi alıb. Həmin vaxt Bako Saakyan ona general-mayor rütbəsi verib. 2018-ci ilin hakimiyyət dəyişikliyindən sonra, iyunun 27-də baş nazir Nikol Paşinyan Mikael Arzumanyanı baş hərbi müfəttişin müavini təyin edib. Baş hərbi müfəttiş isə Ermənistan silahlı qüvvələrinin keçmiş Baş Qərargah rəisi Movses Akopyan idi. Onun müavini təyin olunandan bir ay keçməmiş, 2018-ci il iyulun 18-də Arzumanyanın Nikol Paşinyanın qərarı ilə, öz ərizəsinə əsasən, həmin vəzifədən azad edildiyi barədə məlumat yayılmışdı. Mətbuatda qeyri-rəsmi, anonim mənbələrə istinad edərək problemin siyasi olduğuna dair fikirlər var idi. Bu fərziyyəni təsdiqləyən heç bir sübut, heç bir fakt yox idi.

→ 4



# Rusiya "Şimal axını"nı dayandırdı

→ 8

# Xarici işlər naziri Ceyhun Bayramov ilə ABŞ dövlət katibinin köməkçisi arasında telefon danışığı olub




Sentyabrın 5-də Azərbaycan Respublikası xarici işlər naziri Ceyhun Bayramov ilə Amerika Birləşmiş Ştatları dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfrid arasında telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı tərəflər regional vəziyyət, o cümlədən münasibətlərin normallaşması səyləri, ikitərəfli gündəlikdə duran məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Nazir Ceyhun Bayramov avqustun 31-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan arasında keçirilən görüşə istinad edib. Görüş nəticəsində xarici işlər nazirlərinə sülh müqaviləsinin layihə mətnlərinin hazırlanması üçün verilən tapşırıqdan irəli gələrək Azərbaycanın buna hazır olduğunu bildirib.

Nazir həmçinin Azərbaycanın sülh gündəliyini irəli aparmaq üçün ardıcıl addımlar atdığını qarşı tərəfin diqqətinə çatdırıb.

Telefon danışığı zamanı həmçinin ikitərəfli əməkdaşlıq gündəliyinə daxil olan məsələlər, eyni zamanda qarşılıqlı maraq doğuran digər mövzular ətrafında fikir mübadiləsi aparılıb. İkitərəfli təmasların bundan sonra da davam etdirilməsinə dair razılıq ifadə edilib.

# Xarici işlər naziri Ceyhun Bayramov Fransa səfiri Zakari Qross ilə görüşüb



Sentyabrın 5-də xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdəki diplomatik fəaliyyətinin başa çatması münasibətilə Fransanın Azərbaycandakı səfiri Zakari Qross ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Fransa səfirinin Azərbaycan üçün çox tarixi bir dövrdə fəaliyyət göstərdiyini bildirən nazir Ceyhun Bayramov səfir Zakari Qrossun ikitərəfli əlaqələrin inkişafı istiqamətində səylərini, onun peşəkar yanaşma nümayiş etdirdiyini qeyd edib. İki ölkə arasında siyasi dialoqun davamlılığı, xüsusilə də dövlət liderləri arasında mövcud olan sıx təmasların münasibətlərin inkişafına, o cümlədən hər hansı məsələlərin müsbət şəkildə həllinə ciddi töhfə verdiyi vurğulanıb. Nazir xüsusilə humanitar, təhsil sahələrində əməkdaşlığın inkişafının davam etdiyini diqqətə çatdırıb.

Səfir Zakari Qross Azərbaycanda fəaliyyətini məmnunluqla qeyd edib. Səfir iki ölkə arasında iqtisadi, nəqliyyat-bağlantı, humanitar və digər sahələrdə əməkdaşlığın əhəmiyyətini səsləndirib və ikitərəfli gündəliyin bir çox sahələr üzrə irəli aparılması imkanlarının mövcud olduğunu qeyd edib.

Nazir minaların təmizlənməsi sahəsində Fransa tərəfinin dəstəyini məmnunluqla qeyd edib. Azad edilən ərazilərin yenidən qurulması və keçmiş məcburi köçkünlərin öz evlərinə geri dönüşünün tezləşdirilməsi baxımından ərazilərin minalardan təmizlənməsinin zəruri olduğunu diqqətə çatdırıb.

Görüş zamanı tərəflər ikitərəfli gündəlikdə duran məsələlər, regional sülh quruculuğu səyləri və qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

Nazir Ceyhun Bayramov səfir Zakari Qrossa gələcək fəaliyyətində uğurlar arzulayıb.

# Azərbaycan və Yaponiya arasında iqtisadi əməkdaşlıq inkişaf edir

Bakıda Azərbaycan Respublikası ilə Yaponiya arasında İqtisadi Əməkdaşlıq üzrə Dövlət Komissiyasının və Yaponiya-Azərbaycan İqtisadi Komitəsinin 11-ci iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası ilə Yaponiya arasında İqtisadi Əməkdaşlıq üzrə Dövlət Komissiyasının sədri, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevin və Yaponiya-Azərbaycan İqtisadi Komitəsinin sədri, Yaponiyanın "Itochu" korporasiyasının vitse-prezidenti Yoşihisa Suzukinin həmsədrliyi ilə keçirilən iclasda Azərbaycan və Yaponiya tərəfindən müxtəlif sahələri təmsil edən bir çox dövlət qurumlarının və özəl sektoru nümayəndələri iştirak ediblər.

Azərbaycan tərəfdən çıxış edən həmsədr Muxtar Babayev iki ölkə arasında diplomatik münasibətlərin qurulduğu gündən bu günə qədər yüksəksəviyyəli əməkdaşlığa, qarşılıqlı etimada və dostluğa əsaslanan Azərbaycan-Yaponiya əlaqələrinin bütün sahələrdə uğurla inkişaf etdiyini, gələcəkdə də bu əlaqələrin gücləndirilməsinin vacib olduğunu, eyni zamanda Yaponiya şirkətlərinin işğaldan azad olunmuş ərazilərimizdə aparılan yenidənqurma və bərpa işlərində yaxından iştirakını diqqətə çatdırıb.

Yaponiyalı həmsədr öz çıxışında Azərbaycan və Yaponiya arasında sıx əlaqələrin və əməkdaşlığın inkişaf etdiyini, Yaponiya şirkətlərinin Azərbaycanda iş qurmasında maraqlı olduqlarını qeyd edib.

Xarici işlər nazirinin müavini Elnur Məmmədov çıxış edərək Azərbaycan və Yaponiyanın beynəlxalq sülh və təhlükəsizliyin qorunmasına hər zaman öz töhfələrini verdiyini, eləcə də Qarabağda aparılan yenidənqurma işlərinə Yaponiyanın dəstəyinin bölgənin tərəqqisinə xidmət edəcəyini vurğulayıb.

Daha sonra iclasda Prezidentin Zəngilan rayonunda xüsusi nümayəndəsi Vahid Hacıyev işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa işləri barədə təqdimatla çıxış edib, Qarabağın iqtisadi potensialı və investisiya mühiti barədə Yaponiya tərəfinə məlumat verib.

ANAMA və Qarabağ Dirçəliş Fondu tərəfindən iştirakçılara işğaldan azad edilmiş ərazilərdə aparılan minadan təmizlənmə işləri, həmçinin Ermənistanın 30 illik işğalı dövründə torpaqlarımıza vurduğu zərərlər barədə stendlər nümayiş etdirilib.

İclasda eyni zamanda Azərbaycanın dövlət qurumlarının nümayəndələri tərəfindən ölkənin iqtisadi potensialı, investisiya mühiti, enerji səmərəliliyinə dair dövlət siyasəti, kənd təsərrüfatı, sənaye, turizm, nəqliyyat, təhsil, ətraf mühit sahələrində əməkdaşlığın inkişaf etdirilməsi barədə təqdimatlar olunub, müzakirələr aparılıb.

Sonda Azərbaycan Respublikası hökuməti və Yaponiya hökuməti arasında ikitərəfli əməkdaşlığa dair sənədlər imzalanıb.

# "TurAz Qartalı - 2022" təlimlərinin açılış mərasimi keçirilib



Sentyabrın 5-də "TurAz Qartalı - 2022" birgə taktiki-uçuş təlimlərinin açılış mərasimi keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, tədbirdə Azərbaycanın və Türkiyənin hərbi qulluqçuları, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov və başqaları iştirak ediblər.

Əvvəlcə hər iki dövlətin himnləri səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və ölkələrimizin müstəqilliyi uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Hərbi Hava Qüvvələrinin zabiti general-mayor Zaur Rüstəmov qonaqları salamlayaraq vurğulayıb ki, bu cür təlimlərin keçirilməsi birgə fəaliyyətlərinin planlaşdırılması, qarşılıqlı əlaqə və döyüş uzlaşmasının öyrənilməsi, eləcə də axtarış-xilasetmə tədbirlərinin icrası baxımından mühüm əhəmiyyət kəsb edir.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Azərbaycan-Türkiyə dostluq və qardaşlıq əlaqələrinin uğurlu inkişafından, bu münasibətlərin yüksək nəticələrindən danışıb.

Digər çıxış edənlər də təlimlərin başlanması və döyüş aviasiyasının uçuşlarının yüksək səviyyədə keçirilməsi ilə əlaqədar iştirakçılara uğurlar arzulayıblar.

Sonra təlimlərin məqsədi, şəxsi heyətin hazırlığı, yerləşməsi, cəlb edilən qüvvələr, icra edilən tapşırıqlar, aviasiya vasitələrinin uçuşu və istifadəsi barədə brifinq keçirilib. Sonda qarşılıqlı hədiyyələr təqdim edilib.











# "TEKNOFEST-2022 Qara Dəniz" ümumilikdə 1 milyon 250 min nəfərə evsahibliyi edib

Türkiyə Respublikasının Samsun şəhərində keçirilən Aerokosmik və Texnologiya Festivalı (TEKNOFEST) uğurla başa çatıb. Festival çərçivəsində təşkil olunan yarışlarda 107 ölkədən 150 min komanda iştirak edib.



AZƏRTAC xəbər verir ki, avqustun 30-da start götürüb altı gün davam edən festivalda Azərbaycan geniş tərkibdə və fəal iştirak edib. Ölkəmizi təmsil edən komandaların fəallığı, təqdim olunan nadir layihələr, o cümlədən Azərbaycan bölməsi böyük maraqla qarşılanıb. TEKNOFEST estafetinin Azərbaycandan yenidən Türkiyəyə keçməsi ilk növbədə iki qardaş ölkənin texnologiya elmləri sahəsindəki qüdrətini nümayiş etdirib. "TEKNOFEST-2022 Qara Dəniz"in final mərhələsinin açılış mərasimində çıxış edən "Baykar Makine" şirkətinin texniki direktoru Selçuk Bayraktarın söylədiyi "Qardaş Azərbaycandan, işğaldan azad edilən azad Şuşadan salam gətirmişəm!" ifadəsi festivalda əks-səda verib.

Rəsmi məlumata görə, "TEKNOFEST-2022 Qara Dəniz" ümumilikdə 1 milyon 250 min insana evsahibliyi edib ki, onların da təxminən 900 mini ziyarətçi olub. Xatırladaq ki, 2018-ci ildən başlayaraq hər il keçirilən festival bu il ilk dəfə Türkiyə hüdudlarından kənarda, Azərbaycanda baş tutub. Növbəti TEKNOFEST-ə Pakistan və ya İndoneziyanın evsahibliyi edəcəyi gözlənilir.

# Avropanın etibarlı tərəfdaşı



*Əvvəli 1-ci səh.*

Azərbaycanla Aİ arasında enerji dialoqu yüksələn xətlə davam edir və bunun ən mühüm nümunələrindən biri bu il iyulun 18-də Bakıda "Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nun imzalanmasıdır. Bu anlaşma memorandumu enerji təhlükəsizliyi sahəsində Aİ-Azərbaycan əməkdaşlığının ən yüksək səviyyəyə çatmasının təcəssümüdür. Ümumiyyətlə, Azərbaycan özünün enerji siyasəti ilə bağlı nəyi planlaşdırıbsa, ona qətiyyətlə nail olub. Aİ ilə imzalanan memorandum gələcək üçün bir növ yol xəritəsidir. Əvvəlki bütün layihələrin reallaşdırıldığını nəzərə alsaq, deyə bilərik ki, enerji sahəsindəki əməkdaşlıqla bağlı yaxın gələcəkdə yeni uğurlara nail olunacaq.

Təbii ki, bütün bunlar Aİ-yə üzv olan ayrı-ayrı ölkələrlə də Azərbaycanın münasibətlərinin strateji mahiyyətini təmin edib. Ümumilikdə isə Aİ Avropanın aparıcı təşkilatı və inkişaf etmiş Avropa dövlətlərinin rəsmi birliyi olaraq Azərbaycanın münasibətlərdə etibarlı tərəfdaş olduğunu qəbul edir, eləcə də rəsmi Bakının müstəqil siyasətinə hörmətlə yanaşır. Bu baxımdan Aİ Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində aparılan danışıqlarda da ölkəmizin beynəlxalq münasibətlərdəki güclü mövqeyi və tərəfdaşlığa sadiqliyi mühüm rol oynayır. Azərbaycanın qətiyyətli siyasət yürütməsi, o cümlədən etibarlı tərəfdaş olması Aİ-nin ölkəmizin ədalətli mövqeyi barədə obyektiv yanaşma ortaya qoyması ilə şərtlənir.

## Azərbaycanın Avropadakı dostu

Azərbaycanın Aİ-yə üzv olan ayrı-ayrı ölkələrlə münasibətləri strateji xarakter daşıyır. Onların sırasında İtaliya ilə münasibətlərin xüsusi yeri var. Prezident İlham Əliyevin Brüsseldən sonra İtaliya Prezidenti Sercio Mattarellanın dəvəti ilə Romaya işgüzar səfərinin nəticələrini təhlil edərkən bir daha görürük ki, iki ölkə arasında əlaqələr yüksək səviyyədədir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, İtaliya ilə Azərbaycan arasında strateji tərəfdaşlığa dair iki sənədin imzalanması, İtaliyanın ölkəmizin birinci ticarət tərəfdaşı olması, keçən il ticarət dövriyyəmizin 9,6 milyard, bu ilin yeddi ayında isə 11 milyard dollara çatması göstərir ki, iki dövlət arasında çox güclü siyasi-iqtisadi əlaqələr mövcuddur.

Azərbaycanla İtaliya arasında əlaqələrin möhkəmləndirilməsində Heydər Əliyev Fondunun böyük xidmətləri var. Respublikamızın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Vatikanda və Romada həyata keçirilən layihələr həm İtaliya, həm də Vatikan tərəfindən böyük minnətdarlıq və razılıqla qarşılanır. Xüsusən Heydər Əliyev Fondu tərəfindən İtaliyada həyata keçirilən layihələrlə yanaşı, təşkil olunan tədbirlər iki ölkə arasında mədəniyyət sahəsində əlaqələrin və xalqlararası təmasların inkişafına böyük töhfə verir.

Azərbaycanla İtaliya arasında dostluq münasibətləri 44 günlük Vətən müharibəsi dövründə də rəsmi Roma tərəfindən açıq şəkildə bəyan olundu. Bu ölkədə Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörməti əks etdirən sənədlər qəbul edildi. Həmin sənədlərdə də vurğulandı ki, bölgədə sülh və hörmətin bərqərar olması üçün Ermənistanın BMT-nin müvafiq qətnamələrindən gələn öhdəliklərə əməl etməsi vacibdir. Hərbi əməliyyatlar dövründə həmrəylik və dəstək mövqeyi İtaliya mətbuatında daha intensiv xarakter aldı. Bir sözlə, hər zaman münaqişənin həlli ilə bağlı ədalətli mövqe sərgiləyən İtaliyanın Vətən müharibəsi dövründə nümayiş etdirdiyi mövqe bir çox Avropa ölkəsi üçün əsl örnək idi.

Müharibə günlərində Azərbaycanın haqlı mövqeyini qətiyyətlə müdafiə edən İtaliya Azərbaycanın strateji müttəfiqi kimi hər bir məsələdə dövlətimizin yanındadır. İtaliya şirkətləri Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulmasında və bərpasında iştirak edirlər.

Azərbaycanla İtaliyanı birləşdirən həm də 3500 kilometrlik "Cənub qaz dəhlizi"dir. Bir il yarım ərzində artıq Avropaya 13,5 milyard kubmetr qaz nəql edilib ki, onun 11,7 milyard kubmetri İtaliyanın payına düşür.

Prezident İlham Əliyevin İtaliyaya işgüzar səfəri zamanı iki ölkənin münasibətlərini daha da sıx edən əməkdaşlığın təməli qoyuldu. Belə ki, İtaliya-Azərbaycan Universitetinin yaradılması və ADA Universitetinin İtaliyanın aparıcı universitetləri ilə əməkdaşlığı iki ölkə arasındakı dostluq əlaqələrini daha da möhkəmləndirəcək.

İtaliya səfəri Prezident İlham Əliyevin yürütdüyü siyasətin qlobal miqyasda ehtiramla qarşılanmasının və özünün siyasi lider kimi dünyadakı nüfuzunun bariz təcəssümü kimi tarixə düşdü. Bu səfər göstərdi ki, iki dövlət arasındakı yüksək siyasi dialoq həm indi, həm də gələcəkdə əlaqələrin daha da şaxələnməsinə yol açacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan Avropanın əsas enerji təminatçılarından birinə çevrilir

## Prezident İlham Əliyevin Beynəlxalq Çernobbio Forumuna dəvət edilməsi ölkəmizə və onun liderinə verilən yüksək dəyərin göstəricisidir

Prezident İlham Əliyevin İtaliyaya işgüzar səfəri iki ölkə arasında əlaqələrin yeni səhifəsini açdı. Səfər çərçivəsində Azərbaycan səfirliyinin yeni binasının açılışı, İtaliya-Azərbaycan Universitetinin yaradılması ilə bağlı əməkdaşlığa dair imzalanmış sazişlərin mübadiləsi mərasimi, Prezidentin Çernobbio şəhərində keçirilən beynəlxalq forumda iştirakı münasibətlərə yeni impuls verdi.

İtaliya və Azərbaycan arasında əlaqələr uzun illərdir davam edir. Bu dövr ərzində Azərbaycan İtaliyanın əsas neft və neft məhsulları təchizatçısına çevrilməklə yanaşı, həm də İtaliyanın Cənubi Qafqazda əsas ticarət tərəfdaşıdır. Bunu ildən-ilə artan ticarət dövriyyəsində də görmək mümkündür. Eyni zamanda Azərbaycan hazırda Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında böyük rol oynayır. 2020-ci ilin sonundan etibarən Azərbaycan TAP layihəsi əsasında İtaliyaya qaz da ixrac edir. Bir il yarım ərzində İtaliyaya 11,7 milyard kubmetr qaz ixrac olunub, bu il isə qazın həcminin artırılması planlaşdırılır.

Bu il Azərbaycan və İtaliya arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyi qeyd olunur. Məhz bu dövrdə iki ölkə arasındakı münasibətlərin yüksələn xətlə inkişafı siyasi ekspertlər tərəfindən də yüksək qiymətləndirilir.

### Azərbaycan Prezidentinin verdiyi mesajlar Aİ-Azərbaycan münasibətləri baxımından vacibdir

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini Hikmət Məmmədov bildirib ki, Prezidentin İtaliyaya işgüzar səfəri, orada baş tutan görüşlər iki ölkə arasında strateji münasibətlərin daha da dərinləşməsi və gələcək əməkdaşlıq imkanlarının perspektivləri baxımından olduqca əhəmiyyətlidir.

Səfər çərçivəsində strateji sahələr üzrə yeni tərəfdaşlıq platformalarının yaradılması Avropanın ən böyük iqtisadiyyatlarından birinə sahib olan İtaliya ilə Azərbaycan arasında yeni səhifə açıb.

Deputatın sözlərinə görə, dövlət başçısının beynəlxalq forumda iştirakı ayrıca bir mühüm hadisədir, çünki beyin mərkəzi tərəfindən ənənəvi olaraq təşkil edilən forumlar daim dünya ictimaiyyətinin diqqət mərkəzində olub. Eyni zamanda bu, Avropanın geosiyasi və geoiqtisadi maraqları daxilindəki prioritet məsələlərin müzakirə edildiyi mötəbər bir platforma hesab edilir.

Prezident İlham Əliyev və İtaliya Prezidenti Sercio Mattarellanın, İtaliya Nazirlər Şurasının Sədri Mario Draqinin də qatıldığı budəfəki tədbir hazırda Avropada o qədər də sadə olmayan tarixi bir mərhələdə baş tutdu. Avropanın şərqində yaşanan müharibə kontekstində həm siyasi birlik, həm iqtisadi-maliyyə münasibətləri, həm də enerji təchizatı və təhlükəsizliyi olduqca kritik bir mərhələdən keçir. Belə mürəkkəb şəraitdə Azərbaycan Prezidentinin Çernobbio şəhərində "The European House - Ambrosetti" beyin mərkəzi tərəfindən təşkil edilmiş yüksək kürsüdən verdiyi mesajlar təkcə Azərbaycan-İtaliya münasibətlərinin gələcəyi baxımından deyil, bütövlükdə ölkəmizin ən böyük ticarət tərəfdaşı olan Avropa İttifaqı-Azərbaycan münasibətləri baxımından da vacib əhəmiyyət kəsb edir.

Hikmət Məmmədov bildirir ki, İtaliyada birinci və Avropada ilk onluqda qərarlaşan "The European House - Ambrosetti" İtaliya və Avropa şirkətləri üçün əhəmiyyət daşıyan məsələlərin müzakirə olunduğu forumlar və müxtəlif tədbirlər təşkil edərək italyan şirkətlərinin qlobal tərəfdaşları ilə əlaqələrinin yaradılmasına və əməkdaşlığın təşviq edilməsinə xidmət edir. "The European House - Ambrosetti" həmçinin İtaliya və Avropa üçün yüksək potensiala malik ölkələrlə əməkdaşlığın təşviqinə müsbət təsir etmək imkanı olan və ikitərəfli iqtisadi gündəmləri inkişaf etdirmək iqtidarında olan liderləri bir araya gətirərək yüksəksəviyyəli müzakirə platformaları təqdim edir.

Deputat Prezident İlham Əliyevin bu platformadan Avropanın gələcək enerji təhlükəsizliyi, "yaşıl enerji" üzrə tərəfdaşlıq, beynəlxalq hüquq və onun tələblərinin yerinə yetirilməsi kontekstində uzunmüddətli və etibarlı tərəfdaşlığın mümkün olması məsələlərindən ətraflı danışdığını xatırladaraq deyir ki, dövlət başçısı Azərbaycanın da beynəlxalq münasibətlər sistemində dövlət kimi davranışları zamanı milli maraqlarını və beynəlxalq hüququnu əsas tutur. Bütün bunlar isə İtaliya və Avropa ölkələri ilə əməkdaşlıqda yeni imkanlar yaradan paradiqmalar kimi qəbul edilir.

### Dövlət başçısı yeni geopolitik durumun real mənzərəsini yaratdı

Milli Məclisin deputatı, Azərbaycan-İtaliya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Rəşad Mahmudov qeyd edir ki, Azərbaycan bu gün siyasi və iqtisadi baxımdan yüksəliş dövrünü yaşayır. Güclü dayaqlara malik olan Azərbaycan beynəlxalq arenada həm də etibarlı tərəfdaş ölkə kimi tanınır.

Dövlət başçısı İlham Əliyevin qətiyyətli və müstəqil xarici siyasət kursu Azərbaycanı ən yüksək tribunalarda tanıtdırmaqda davam edir. Prezidentin İtaliyaya səfəri də bu baxımdan xüsusi diqqət çəkir.

Rəşad Mahmudov səfər çərçivəsində İlham Əliyevin İtaliya Prezidenti və İtaliyanın Baş naziri ilə görüşlərindən, aparılan danışıqların Azərbaycan-İtaliya münasibətlərinin inkişafında mühüm əhəmiyyət kəsb etməsindən söz açaraq bildirib ki, bu səfər həm də yeni mərhələnin əsasını qoyub: "Prezident İlham Əliyevin İtaliyaya səfəri zamanı xüsusi önəm daşıyan hadisələrdən biri İtaliyanın Çernobbio şəhərində "The European House - Ambrosetti" beyin mərkəzi tərəfindən "Dünya, Avropa və İtaliyaya baxış"və "Rəqabətli strategiyalar üçün bu günün və sabahın ssenarisi" mövzusunda 48-ci Beynəlxalq Çernobbio Forumunda iştirakı və çıxışı idi. Azərbaycan liderinin bu foruma xüsusi qonaq kimi qatılması həm ölkəmizə, həm də onun rəhbərinə verilən yüksək qiymətin nümunəsi idi".

Deputat qeyd edir ki, dövlət başçısının bu forumda xüsusi statusla iştirakı təsadüfi deyildi. Bu forum dünyanın mühüm məsələlərinin müzakirə edildiyi və nüfuzlu dövlət başçılarının, ictimai-siyasi xadimlərin, politoloqların iştirak etdiyi bir mərkəz kimi tanınır. Ölkəmizin rəhbəri forumdakı çıxışında beynəlxalq ictimaiyyətə önəmli mesajlar verməklə, həm yeni geopolitik durumun real mənzərəsini yaratdı, həm də yeni siyasi-iqtisadi münasibətlərin zəruriliyini diqqətə çatdırdı. Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolundan danışan Prezident bildirdi ki, ölkəmiz iki strateji neft boru kəmərinin inşası ilə Avrasiyanın enerji xəritəsinin dəyişdirilməsi prosesində təşəbbüsü üzərinə götürüb və bunu uğurla gerçəkləşdirib. Bundan başqa, ölkə rəhbəri artan ehtiyacı təmin etmək üçün hazırda sıx əməkdaşlığa və əlaqələndirməyə ciddi ehtiyac olduğunu, bu məqsədlə Avropa İttifaqı və Azərbaycan arasında enerji ilə bağlı dialoqa start verildiyini diqqətə çatdırıb. Prezident İlham Əliyevin forumda qeyd etdiyi kimi, Avropanın enerji təhlükəsizliyi ilə bağlı bu gün yalnız təbii qaz müzakirə mövzusu deyil, həmçinin danışıqlara enerji bazarının digər seqmentləri, xüsusilə elektrik enerjisi, hidrogen və "yaşıl hidrogen" daxildir. Yeri gəlmişkən, ölkəmiz sadalanan məsələlərin həlli istiqamətində yeni layihələrin icrasını planlaşdırır.

### İqtisadi gücü və siyasi müstəqilliyi Azərbaycanı lider mövqeyə yüksəldib

Deputat Prezident İlham Əliyevin İtaliyanın "İl Sole 24 Ore" qəzetinə müsahibəsinin beynəlxalq ictimaiyyət tərəfindən maraqla qarşılandığını bildirib.

Prezident müsahibəsində regionda vəziyyətin sülhə doğru inkişaf etdiyinə ümidlə baxdığını qeyd edərək, ölkəmizin hazırlanan sülh sazişinin əsasında dayanan beş baza prinsipini irəli sürdüyünü və Ermənistanın bunu qəbul etdiyini də deyib. Prezident həmçinin vurğulayıb ki, regional inkişafla bağlı narahatlıq yaradan heç bir məqam yoxdur. Ölkəmizin rəhbəri dünya dövlətlərinin də regionda sülhün yaranmasında maraqlı olduğunu və beynəlxalq tranzit xəttində bu bölgənin roluna xüsusi diqqət yetirdiyini bir daha xatırladıb. Deputat deyib: "Dövlət başçısı bu proseslə və regionda bir çox məsələ ilə bağlı Türkiyə və Azərbaycanın demək olar ki, vahid komanda kimi hərəkət etdiyini bildirərək, bu faktorun hamı tərəfindən nəzərə alınmasını diqqətə çatdırıb. Bu mesaj bir daha Türkiyə-Azərbaycan münasibətlərinin yüksək müttəfiqlik səviyyəsinin bəyanına çevrilib".

Rəşad Mahmudov vurğulayır ki, bu gün Avropanın enerji təhlükəsizliyi hər zaman olduğundan daha çox prioritet məsələdir və bu, Qərb ölkələrinin dövlət başçıları tərəfindən də açıq etiraf edilir. Onun sözlərinə görə, belə bir situasiyada Avropanın enerji sektorunda ən etibarlı tərəfdaşı olan Azərbaycan həm iqtisadi, həm də siyasi mövqelərini daha da gücləndirir. Ərazi bütövlüyünü təmin etmiş Azərbaycan bu gün öz milli maraqlarını diktə etmək gücündədir. İqtisadi gücü və siyasi müstəqilliyi Azərbaycanı lider mövqeyə yüksəldib ki, bu da Prezident İlham Əliyevin yürütdüyü siyasətin məntiqi nəticəsidir. Deputat bildirir ki, dövlət başçısının uğurlu daxili və xarici siyasətinin yekunu kimi nəinki Azərbaycan həqiqətləri dünyanın mötəbər tribunalarından səsləndirilir, həm də böyük dövlətlər, nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən dövlət maraqlarımız qəbul olunur: "Prezidentin İtaliya səfəri bir həqiqəti yenidən təsdiqlədi. Azərbaycan beynəlxalq arenada nüfuzuna və gücünə görə birmənalı olaraq qəbul olunan, öz sözünü açıq şəkildə ifadə edən dövlətlərdəndir".

Rəşad Mahmudovun fikrincə, yeni dünya düzəninə regionun lider dövləti kimi qədəm qoyan Azərbaycan müasir siyasi münasibətlər sistemində bütün dövlətlərlə bərabərsəviyyəli münasibətlər qurub, mövqeyinə görə öz maraqlarını həyata keçirmək imkanına malikdir. Prezident İlham Əliyev bu gün dünya liderləri sırasında uğurlu siyasəti və qətiyyəti ilə ölkəsini yüksək səviyyədə təmsil edir. Hazırda Azərbaycan özünün siyasi və iqtisadi baxımdan yüksəliş dövrünü yaşayır. Tarixə dövlətçiliyimizin qızıl dövrü kimi düşəcək bu yüksəlişin müəllifi Prezident İlham Əliyev və ona bu gücü verən Azərbaycan xalqıdır.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Prezident İlham Əliyevin İtaliyaya səfəri bu ölkə mətbuatının diqqət mərkəzində olub

Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya işgüzar səfəri bu ölkənin çoxsaylı kütləvi informasiya vasitələrinin böyük marağına səbəb olub. AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində keçirilmiş görüşlər, Prezident İlham Əliyevin Çernobbio şəhərində "The European House - Ambrosetti" beyin mərkəzinin təşkil etdiyi beynəlxalq forumdakı çıxışı zamanı səsləndirdiyi fikirlər və yerli KİV-ə açıqlamaları ilə bağlı İtaliya mətbuatında 100-dək məqalə, məlumat və videoreportaj yayımlanıb. Qeyd edək ki, İtaliya KİV Azərbaycan Prezidentinin bu ölkəyə səfərindən öncə də səfərin əhəmiyyətinə və planlaşdırılan görüşlərin ikitərəfli əməkdaşlığın genişləndirilməsindəki önəminə geniş yer ayırıb.







## Çoxşaxəli strateji tərəfdaşlıq səviyyəsinə yüksələn Azərbaycan-İtaliya münasibətləri

Prezident İlham Əliyevin sentyabrın 1-də İtaliya Respublikasının Prezidenti Sercio Mattarella və Nazirlər Şurasının Sədri Mario Dragi ilə görüşlərinə dair bu ölkənin "RAI" televiziya kanalında gün ərzində reportajlar yayımlanıb. Reportajlarda bu il iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd edildiyi, görüşlərdə çoxşaxəli strateji tərəfdaşlıq səviyyəsinə yüksələn ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə olunduğu bildirilib.

Prezident Sercio Mattarella və Nazirlər Şurasının Sədri Mario Dragi ilə keçirilmiş görüşlərlə bağlı İtaliya Prezidentinin və Nazirlər Şurasının mətbuat xidmətlərinin məlumat və videoreportajları "La7", "il Messaggero", "İl Sole 24 Ore", "Affari Italiani", AGI", "Agenzia Nova", "Libero Quotidiano", "Borsa Italiana", "Italpress", "Italia Informa", "Notize Yahoo", "Tg cal24", "La Sicilia", "Mi-lorenteggio", "Gazzetta di Parma", "L'Edicola del Sud", "Blog Sicilia", "Audio press", "Giornale Partite Iva" kimi mətbuat orqanları da daxil olmaqla bu ölkənin çoxsaylı kütləvi informasiya vasitələrində yayımlanıb.

Materiallarda Azərbaycan Prezidentinin İtaliyaya səfərinin əhəmiyyəti təhlil olunub və səfərin iki ölkə arasında çoxölçülü strateji tərəfdaşlığın daha da gücləndirilməsinə xidmət edəcəyi vurğulanıb.

## İtaliya-Azərbaycan Universiteti - ikitərəfli münasibətlərdə yeni səhifə

Səfər çərçivəsində Prezident İlham Əliyevin Azərbaycan Respublikasının İtaliyadakı səfirliyinin binasının açılışında iştirakı və İtaliya-Azərbaycan Universitetinin yaradılmasına dair imzalanmış sənədlərin mübadiləsi mərasimində söylədiyi fikirlərlə bağlı İtaliyanın aparıcı xəbər agentliklərindən olan "Askanews" tərəfindən hazırlanan və yayılan məlumatlar "Notize Yahoo", "Notizie Accadero", "Conquista del lavoro", "Notizie Tiscali", "Il Giornale d'Italia", "Finance Yahoo", "Agenzia Nova", "Italpress" kimi mətbuat orqanlarında da dərc olunub.

Azərbaycan Prezidentinin çıxışı zamanı sənədlərin mübadiləsi mərasiminin Romanın tarixi məhəlləsində yerləşən səfirliyin yeni binasında keçirilən ilk tədbir olduğunu vurğuladığı, bu binada keçirilən ilk tədbir məhz təhsil sahəsinə aid olmasının İtaliya-Azərbaycan əlaqələrinin yeni səhifəsi kimi qiymətləndirdiyi və iki ölkənin təhsil sahəsində genişmiqyaslı əməkdaşlığa başladığını qeyd etdiyi bildirilib. Azərbaycanın İtaliyadakı səfirliyinin yeni binasının açılması tarixi hadisə kimi qiymətləndirilib və bunun iki ölkənin dostluq əlaqələrinin mühüm nümunəsi olduğu vurğulanıb.

"İl Sole 24 Ore" qəzeti isə İtaliya-Azərbaycan Universiteti ilə bağlı geniş məqalə dərc edib. Məqalədə Prezident İlham Əliyevin fikirlərinə xüsusi yer ayrılıb. Qeyd olunub ki, İtaliya-Azərbaycan Universiteti üzrə əməkdaşlıq çərçivəsində Azərbaycanın ADA Universiteti ilə İtaliyanın beş aparıcı ali təhsil müəssisəsi - Luiss Guido Carli Universiteti, Romanın Sapienza Universiteti, Turin Politexnik Universiteti, Alma Mater Bolonya Universiteti və Milan Politexnik Universiteti arasında akademik əməkdaşlığa dair imzalanmış sazişlər mübadilə edilib. Prezident İlham Əliyevin İtaliya-Azərbaycan Universitetinin İtaliya-Azərbaycan dostluğu mərkəzi olacağına əminliyini ifadə etdiyi qeyd olunub.

İki ölkənin çox güclü siyasi-iqtisadi əlaqələr qurduğu, İtaliyanın Azərbaycanın birinci ticarət tərəfdaşı olduğu və ötən il qarşılıqlı ticarət dövriyyəsinin 9,6 milyard, cari ilin yeddi ayında isə 11 milyard dollara çatdığı bildirilib.

## Prezident İlham Əliyev: "TAP-ın sərmayədarları boru kəmərinin genişləndirilməsini müzakirə edirlər"

İtaliyanın nüfuzlu qəzetləri və xəbər agentlikləri Prezident İlham Əliyevin sentyabrın 2-də Çernobbio şəhərində "The European House - Ambrosetti" beyin mərkəzinin təşkil etdiyi "Dünya, Avropa və İtaliyaya baxış" və "Rəqabətli strategiyalar üçün bu günün və sabahın ssenarisi" mövzusunda 48-ci Beynəlxalq Çernobbio Forumunda əsas qonaq qismində iştirakına və beynəlxalq tədbirin plenar iclasında "Enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu" mövzusunda çıxışı zamanı səsləndirdiyi fikirlərə geniş yer ayırıb. "Adnkronos", "Notize Yahoo", "La Ragione", "Finance Yahoo", "MSN", "İl Sole 24 Ore", "Finanza 24h", "Ultime Notizie", "Flamina&dintorni" kimi xəbər portallarında dərc olunan yazılarda Prezident İlham Əliyevin İtaliya ilə Azərbaycanın olduqca fəal siyasi dialoq qurduğunu, iqtisadi, enerji və təhsil sahəsində əlaqələrin inkişafını vurğuladığı bildirilib. Bir il yarım öncə istifadəyə verilən Trans-Adriatik Boru Kəməri (TAP) ilə Avropaya 13,5 milyard kubmetr təbii qazın nəql edildiyi, bu həcmin 11,7 milyard kubmetri İtaliyanın payına düşdüyü və cari ildə İtaliya bazarına 10 milyard kubmetr qaz nəqlinin planlaşdırıldığı qeyd olunub.




Materiallarda Azərbaycan Prezidentinin ötürmə qabiliyyəti 10 milyard kubmetr olan TAP boru kəmərinin hazırda tam gücü ilə işlədiyini, bu həcmin ən azı 20 milyard kubmetrə çatdırılmasının zəruriliyini bildirdiyi, bunun üçün əlavə maliyyə vəsaiti tələb edildiyini və Azərbaycanın investor kimi buna hazır olduğunu, lakin digər investorların da bu işdə iştirakının zəruriliyini qeyd etdiyi vurğulanıb. Prezident İlham Əliyevin Rusiya-Ukrayna müharibəsi başlayandan bəri Azərbaycanın qaz ixracının həcminin artırılması və ya ixraca başlanılması ilə bağlı 10-dan çox ölkədən rəsmi müraciət aldığını qeyd etdiyi bildirilib.

## Azərbaycan Prezidenti: "Avropaya təbii qaz ixracını iki dəfə artırmağa hazırıq"

Prezident İlham Əliyev səfər çərçivəsində İtaliyanın ən nüfuzlu mətbuat orqanlarından olan "İl Sole 24 Ore" qəzetinə geniş müsahibə verib. Müsahibə qəzetin həm çap versiyasında, həm də internet səhifəsində dərc olunub.

Azərbaycan Prezidenti müsahibəsində ölkəmizin təsdiq edilmiş təbii qaz ehtiyatlarının həcminin 2,6 trilyon kubmetr təşkil etdiyini, Avropaya nəql edilən qazın həcminin iki dəfə artırılmasının nəzərdə tutulduğunu, İtaliya, Yunanıstan və Bolqarıstanla müqavilələrin imzalandığını, qitənin digər ölkələrinə qaz nəqlinin qiymətləndirildiyini bildirib. Prezident İlham Əliyev İtaliyanın Azərbaycanın karbohidrogen resurslarını Avropanın digər yerlərinə ötürəcək ölkə olacağına əminliyini ifadə edib.

İtaliya şirkətlərinin işğaldan azad olunan ərazilərdə aktiv fəaliyyət göstərdiyini deyən Prezident İlham Əliyev bunun iki ölkənin münasibətlərimizin nə dərəcədə yaxın olduğunu göstərdiyini qeyd edib. Prezident İlham Əliyev Azərbaycanda bərpaolunan enerji-külək, günəş və su-elektrik stansiyalarının qurulmasında daha çox İtaliya şirkətini dəvət etmək üçün böyük planların olduğunu vurğulayıb. İtaliya şirkətlərinin Azərbaycan tərəfindən maliyyələşdirilən və Azərbaycanda İtaliya şirkətlərinin icra etdiyi müqavilələrin dəyərinin 10 milyard dollardan çox olduğu qeyd edilib.

Prezident İlham Əliyev İtaliyanın Azərbaycanda yaxşı təmsil olunduğunu vurğulayıb. İki ölkənin əlaqələrinin enerji və ticarət sahələri ilə məhdudlaşmadığını bildirən Azərbaycan Prezidenti ADA Universiteti və İtaliyanın beş universiteti əməkdaşlığı başladığını, İtaliya-Azərbaycan Universitetinin binasının inşa edildiyini və 2024-cü ilin sonunadək hazır olacağını deyib.

## İtaliya və Azərbaycan strateji tərəfdaşlığın gücləndirilməsinə doğru

Azərbaycan Prezidentinin səfərinin yekunları ilə bağlı İtaliyanın nüfuzlu "il Giornale" qəzetində analitik məqalə dərc olunub. Habelə "Askanews" xəbər agentliyi səfər vaxtı Prezident İlham Əliyevin iştirak etdiyi tədbirlərdə söylədiyi fikirlər, keçirdiyi görüşlərlə bağlı məqalə və videoreportajlar hazırlayıb. Həmin məlumatlar İtaliyanın çoxsaylı mətbuat orqanı, o cümlədən "il Sole 24 Ore", "il Messaggero", "Quotidiano", "Notizie Tiscali", "Affari İtaliani", "il Dolomiti", "Virgilio", "Notizie Tiscali", "Tiscali TV", "il Tempo", "Notizie Yahoo", "Finance Yahoo", "il Giornale d'Italia", "MSN", "Libero Quotidiano", "Today", "Notizie" və digər kütləvi informasiya vasitələri tərəfindən də yayılıb.

Habelə "Kmetro0", "Scenari Internazionali", "Sardegnagol", "Giornale Diplomatico", "Gazzetta Diplomatica", "Globus Magazine", "Agenzia Nova" kimi mətbuat orqanlarında da səfərlə bağlı geniş məqalələr dərc olunub.

# YAP-ın 30-cu ildönümü ilə əlaqədar fərdi yazı müsabiqəsi elan edilib

Yeni Azərbaycan Partiyasının (YAP) 30-cu ildönümü ilə əlaqədar fərdi yazı müsabiqəsi elan edilib.

Partiyadan AZƏRTAC-a bildirilib ki, müsabiqənin məqsədi Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik irsinin və əbədiyaşar ideyalarının, Prezident İlham Əliyevin müasir çağırışlara və milli maraqlara əsaslanan siyasətinin, qalib xalqın zəfər partiyası olan Yeni Azərbaycan Partiyasının 30 il ərzində keçdiyi zəngin və şərəfli inkişaf yolunun araşdırılması və təbliğ edilməsi, jurnalistlərin yaradıcı əməyinin qiymətləndirilməsidir.

Müsabiqə "Heydər Əliyev ideyaları - yeni Azərbaycanın dövlətçilik irsi", "Yeni Azərbaycan Partiyası - Müzəffər Liderlə yeni zəfərlərə doğru" və "Yeni Azərbaycan Partiyasının VII Qurultayı: yeni mərhələ, yeni hədəflər" mövzuları üzrə keçiriləcək. Müsabiqə elan olunan günədək ən azı bir il müddətində kütləvi informasiya vasitələrində (qəzet, jurnal, informasiya agentliyi və rəsmi qeydiyyatdan keçmiş internet media resurslarında) fasiləsiz çalışan şəxslər müsabiqədə iştirak edə bilərlər.

Dərc olunmuş yazıların sərlövhələri təklif olunmuş mövzulara uyğun olmalı, müsabiqə iştirakçılarının yazıları çalışdıqları mətbuat orqanlarında dərc edilməlidir. Yazıların qəbul olunması üçün yazının dərc edildiyi mətbuat orqanının bir nüsxə çap variantı, yazının bir nüsxə elektron variantı (Times New Roman (12) şriftində, CD diskdə), yazının üç nüsxə A4 formatda çap olunmuş variantı (müəllifin imzası göstərilməməlidir) təqdim edilməli, yazıların həcmi bir səhifə (A3; 9-11 min işarə) olmalıdır.

Müsabiqəyə hər jurnalist yalnız bir yazı təqdim edə bilər. Müsabiqədə iştirak etmək üçün şəxsiyyət vəsiqəsinin surəti, jurnalist vəsiqəsinin surəti və şəxsi bank rekvizitləri (hesabın aktiv olması təsdiqlənməlidir) Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatına (Bakı şəhəri, S.Senyuşkin küçəsi 26) təqdim olunmalıdır.

Yazılar mövzunun əhatə olunması, jurnalist araşdırması, əsaslandırma; materialın oxucu üçün informasiyalılıq dərəcəsi; yazının dil və üslub xüsusiyyətləri, bədii-estetik ifadəsi; jurnalist obyektivliyi, qərəzsizliyi, tərəfsizliyi və məsuliyyəti; ictimai maraqların müdafiəsi meyarları üzrə qiymətləndiriləcək.

Müsabiqədə birinci yer tutan şəxs 700 manat, ikinci yer 500 manat, üçüncü yer isə 300 manat pul mükafatı ilə təltif ediləcək. Həmçinin ilk on nəfərə həvəsləndirici mükafat olaraq 200 manat pul təqdim olunacaq.

Müsabiqədə iştirak üçün müraciətlərin qəbulu 2022-ci il oktyabrın 7-si saat 18:00-dək davam edəcək.

Əlaqə telefonları: (+994 12) 490 80 33 / (+994 77) 440 02 00.
Elektron ünvan: **yapmetbuat@mail.ru**

# Fergus OULD: "Böyük Britaniyanın Azərbaycanda yeni səfiri təyin olunduğum üçün çox şadam"

Böyük Britaniyanın Azərbaycana yeni təyin olunan səfiri Fergus Ould videomüraciət yayıb.

AZƏRTAC xəbər verir ki, səfirin özünün tviter səhifəsində paylaşdığı videomüraciətdə ölkəsinin Azərbaycandakı yeni səfiri təyin edildiyi üçün çox şad olduğunu bildirərək deyib: "Ölkələrimiz arasında münasibətlər artıq yüksək səviyyədədir. Amma inanıram ki, biz birlikdə daha da çox iş görə bilərik".




Diplomat videomüraciətdə həmçinin özü barədə də məlumat verib. O qeyd edib: "Mən şotland və britaniyalıyam. Öz soy-kökümlə fəxr edirəm. Eyni zamanda başqa ölkələrin tarixini, adət-ənənələrini, həmçinin onların müasir mədəniyyətlərini öyrənməyi sevirəm.

Bir ildir ki, Azərbaycan dilini öyrənirəm. Mən keçən qış 6 həftə Gəncədə bir ailənin qonağı oldum. Yerli müəllimlərdən dərs aldım. Bu müddətdə azərbaycanca danışdım, yerli yeməkləri daddım və evimizdən Göygölün ətrafındakı gözəl dağları seyr etdim. Yeni sözləri, xüsusilə atalar sözlərini öyrənməyi sevirəm. 2023-cü ilin sonunadək Azərbaycanın bütün bölgələrinə səfər etmək, heyrətamiz müxtəlifliyini görmək istəyirəm".

# Paşinyandan keçmiş hərbi xuntaya növbəti zərbə

## Mikael Arzumanyanın həbsi Ermənistanda böyük rezonans doğurub

Ermənistanda siyasi baxımdan vəziyyət kifayət qədər gərgindir. Mövcud hakimiyyətlə keçmiş hərbi xunta arasında münasibətlərin daha da kəskinləşəcəyinə dair verilən proqnozlar isə özünü doğruldur.

Hakimiyyətdə dayaqlarını daha da gücləndirən baş nazir Nikol Paşinyan Koçaryan-Sarkisyan koalisiyasını sıradan çıxarmaq üçün yenidən hərəkətə keçib. Bu xüsusda növbəti zərbə Ermənistanın İstintaq Komitəsi Araik Arutyunyanın "baş müşaviri" Mikael Arzumanyanın Şuşanı müdafiə edə bilmədiyinə görə həbs edilməsidir. İstintaq məlumatına görə, Arzumanyanın rəsmi səhlənkarlığı və hərəkətsizliyi insan tələfatına və şəhərin müdafiəsinin uğursuzluğa düçar olmasına, Şuşanın itirilməsinə səbəb olub.

Həbs Ermənistan ictimaiyyətində böyük rezonans doğurub. Müxalifət dairələri iddia edirlər ki, bu yolla siyasi hakimiyyət "günah keçisi" tapmağa və Şuşanın məsuliyyətini hərbçilərin, indiki halda Mikael Arzumanyanın üzərinə qoymağa çalışır.

Əslində, bu məsələ istintaq və məhkəmə ilə müəyyən edilməlidir, ancaq Ermənistan ictimaiyyətinin bu qurumlarla bağlı çoxsaylı sualları var. Onlara siyasi simpatiyalar əsasında yanaşmalar var. Ermənistanın müharibədən sonrakı böhranının köklərindən biri də budur - tam etibarsızlıq.

İnsanlar bir-birinə və ya qurumlara güvənmirlər və yalnız sözdə siyasi liderlərə, daha doğrusu, kumirlərə inanırlar. O mühitdə 44 günlük müharibədə baş verənləri anlamaq üçün lazım olan hər hansı addım atmaq, etimad mühitini bərpa etmək əvəzinə bir-birinə inamsızlığı dərinləşir. Bu, Ermənistanı iflic vəziyyətinə salan çıxılmaz nöqtədir.

"1in.am" nəşrində dərc edilən məqalədə deyilir ki, Ermənistan ictimaiyyətində cinayət işi ilə bağlı çoxlu sayda spekulyasiyalar yayılır. Artıq müxtəlif sosial təbəqələr təqsirsizlik prezumpsiyasından asılı olmayaraq öz "hökmünü dərc edib" və bəzi təbəqələr eyni dərəcədə əmindirlər ki, Mikael Arzumanyanın simasında siyasi hakimiyyət Şuşanın təslim olması üçün günahkar axtarır. Həqiqətin nə olduğu, insanların nə baş verdiyini anlaması sağlam ictimai orqanizm üçün vacibdir. Hüquqi proseslərin məqsədi cəmiyyəti bu fakta yaxınlaşdırmaq, ya məsuliyyət daşıyanların dairəsini müəyyən etmək, ya da lazımi dərs çıxarıb nəticə çıxarmağa əsas vermək məqsədi daşımalıdır.

Qeyd olunur ki, Arzumanyanın məsuliyyəti nə dərəcədədir, bu məsələni aidiyyəti strukturlar araşdırmalı və ictimaiyyət bütün bunları peşəkar və vətəndaş nəzarətində saxlamalıdır. Polkovnik Arzumanyan 2014-cü ildə general rütbəsi alıb. Həmin vaxt Bako Saakyan ona general-mayor rütbəsi verib. 2018-ci ilin hakimiyyət dəyişikliyindən sonra, iyunun 27-də baş nazir Nikol Paşinyan Mikael Arzumanyanı baş hərbi müfəttişin müavini təyin edib. Baş hərbi müfəttiş isə Ermənistan silahlı qüvvələrinin keçmiş baş qərargah rəisi Movses Akopyan idi. Onun müavini təyin olunandan bir ay keçməmiş, 2018-ci il iyulun 18-də Arzumanyanın Nikol Paşinyanın qərarı ilə, öz ərizəsinə əsasən həmin vəzifədən azad edildiyi barədə məlumat yayılmışdı. Mətbuatda qeyri-rəsmi, anonim mənbələrə istinad edərək problemin siyasi olduğuna dair fikirlər var idi. Bu fərziyyəni təsdiqləyən heç bir sübut, heç bir fakt yox idi.

Beləliklə, bu ölkədə baş verən proseslər daxili siyasi proseslərin daha da gərginləşdiyini və İrəvanın sürətlə məhvinə doğru yaxınlaşdığını növbəti dəfə təsdiqləyir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Brüssel görüşü sülh danışıqlarına yeni impuls verdi

## Bütün proseslər Azərbaycanın maraqlarına uyğun həyata keçirilir

Brüsseldə Azərbaycanla Ermənistan arasında sülh danışıqlarının növbəti, dördüncü mərhələsi reallaşdı. Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə keçirilən görüşdə sülh müqaviləsinin hazırlanmasına dair razılıq əldə olundu. Bu proses isə bir daha göstərdi ki, bütün danışıqlar qalib ölkə kimi Azərbaycanın maraqlarına uyğun keçməkdədir.



İlham Əliyev bir daha Azərbaycanın sülh sazişinin imzalanma prosesinə hazır olduğunu, ölkəmizin üzərinə düşən bütün öhdəlikləri vaxtında yerinə yetirdiyini bəyan etdi. Bundan öncə keçirilən hər üç görüşdə olduğu kimi, dördüncü görüşdə də Azərbaycan hərtərəfli üstünlüyünü təmin etdi.

Budəfəki görüşün gündəliyində duran əsas məsələlər sülh müqaviləsinin imzalanmasına hazırlığın başlanması, sərhədlərin delimitasiyası, nəqliyyat məsələləri, həmçinin itkin düşmüş şəxslər və minalar problemi idi. Demək olar ki, bütün məsələlər ətrafında müzakirələr aparıldı və bəzi razılaşmalar əldə edildi.

Əvvəlki görüşlərdə olduğu kimi, Brüsseldə də "Qarabağ", "Minsk qrupu", "status" ifadələrinin işlədilməməsi sülh gündəliyində rəsmi Bakının maraqlarının tam şəkildə təmin olunduğunu bir daha təsdiqlədi. Yəni danışıqlarda erməni tərəfinin müqavimət göstərməsinə və real nəticələrin əldə olunmasının qarşısını almaq cəhdlərinə baxmayaraq, İlham Əliyev Şarl Mişelin vasitəçiliyi ilə konkret nəticə əldə edə bildi.

Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel üçtərəfli görüşdən sonra verdiyi bəyanatda müzakirə olunmuş məsələlər üzrə konkret fikirlərini səsləndirərək dedi ki, sülh müqaviləsinin irəliləməsi istiqamətində substantiv işin sürətləndirilməsi ilə bağlı hər iki ölkənin xarici işlər nazirlərinə layihə mətnlərinin hazırlanması üçün bir ay ərzində görüşmək barədə tapşırıq verilib. Həmçinin humanitar məsələlər, eləcə də minaların təmizlənməsi, saxlanılan və itkin düşmüş şəxslərin taleyi barədə ətraflı müzakirələr aparılıb və qeyd edilib ki, Avropa İttifaqı bu məsələlərlə məşğul olmaqda davam edəcək.

Tərəflər sərhədlərin delimitasiyasına dair bütün məsələlərlə bağlı əldə olunmuş irəliləyişləri və sabit vəziyyəti daha yaxşı təmin etməyi, nəqliyyat xətlərinin açılması ilə bağlı şərtlərin müzakirəsində əldə olunmuş nəticələri bir daha nəzərdən keçiriblər.

Bəyanatda eyni zamanda Avropa İttifaqının uzunmüddətli və davamlı sülh istiqamətində öz dəstəyini bundan sonra da göstərməyə hazır olduğu vurğulanıb. Avropa İttifaqı hər iki ölkənin və onların əhalisinin rifahı naminə iqtisadi inkişafın irəliləyişinə təkan verməyə də davam edəcək. Görüşdə həmçinin Sərhəd Komissiyasının növbəti iclasının noyabrda Brüsseldə keçirilməsi ilə bağlı razılığa gəlinib.

Göründüyü kimi, Avropa İttifaqı Şurasının təşəbbüsü ilə başlanan sülh danışıqları prosesində müəyyən irəliləyişlər var.

Şarl Mişelin dediyi kimi, noyabr ayında növbəti görüş baş tutacaq. Bir ay ərzində sülh müqaviləsinin imzalanması üçün mətnin hazırlanması prosesi həyata keçirilməlidir. Həmçinin sərhədlərin delimitasiyası və kommunikasiyaların açılması ilə bağlı fəaliyyət göstərən komissiyaların da növbəti görüşü Brüsseldə keçiriləcək.

Proseslərin gedişatına əsasən deyə bilərik ki, noyabr ayında baş tutacaq görüşdə, Zəfərin ikinci ildönümündə sülh müqaviləsinin tam hazırlanmasının və hətta imzalanmasının şahidi ola bilərik.

Beləliklə, Avropa İttifaqı Şurasının və şəxsən prezident Şarl Mişelin bu prosesdə rolu Azərbaycanın bütövlükdə bölgənin gələcəyinə təminat verən milli maraqlarına uyğundur və bu mənada Brüssel prosesinin davamında uğurlu yekun sülh sazişinə ümid etmək olar. Çünki artıq ermənilər də dərk edirlər ki, nəinki Qarabağda və Azərbaycanın sərhədləri daxilində, hətta Cənubi Qafqazda baş verən proseslər də qalib ölkənin maraqlarına uyğun şəkildə həyata keçirilir. Regionda baş verən bütün proseslərin hərəkətverici qüvvəsi rolunda Azərbaycan iştirak edir. Ermənilər artıq Azərbaycan ərazisində qala bilməyəcəklərini yaxşı dərk edirlər. Mümkün olduğu halda qanunsuz məskunlaşdıqları Azərbaycan torpaqlarından çıxmaq və ya başqa bir ölkəyə köçmək istəyirlər.

Brüssel görüşündə Azərbaycan Prezidentinin irəli sürdüyü və diktə etdiyi şərtlərin nəinki Ermənistan, həm də beynəlxalq ictimaiyyət və təşkilatlar tərəfindən qəbul edilməsi onu göstərir ki, Dağlıq Qarabağla bağlı termin müzakirə mövzusu deyil. Qarabağda ermənilərə hər hansı status verilməsi ilə bağlı məsələ artıq nəinki Ermənistanın, beynəlxalq təşkilatların da gündəliyindən çıxarılıb. ATƏT-in Minsk qrupu kimi bir təşkilat tarixə qovuşub.

Düzdür, bunu dərk edən Qarabağdakı separatçı erməni qüvvələr, Ermənistan hakimiyyətinə qarşı olan revanşistlər problemin uzadılmasına çalışırlar. Lakin onlar da yaxşı anlayırlar ki, heç bir nəticə əldə edə bilməyəcəklər. Lazım gəlsə, "dəmir yumruq" yenə işə düşəcək. Çünki "Qisas" əməliyyatı hələ arxa plana keçirilməyib. Regionda sülhün bərqərar olmasını istəməyən qüvvələr bunu anlamalıdırlar, əks təqdirdə bütün cəhdləri iflasa uğrayacaq.

Azərbaycanın Zəngəzur dəhlizinin açılması istiqamətindəki israrı da reallaşacaq. Bununla da Cənubi Qafqazın nəqliyyat-logistika imkanları daha da genişlənəcək. Yeni imkanların yaranması ilk növbədə Ermənistanın düşdüyü acınacaqlı durumdan xilası ola bilər. Eyni zamanda bu proses yeni əməkdaşlıq platformalarının yaranmasını şərtləndirəcək. Yeni qlobal layihələr isə region ölkələrinə iqtisadi dividendlər qazandıracaq.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

## Azərbaycan XİN Rusiyanın Kabildəki səfirliyinə edilən terror hücumunu pisləyib

Sentyabrın 5-də Rusiya Federasiyasının Kabil şəhərindəki səfirliyinə edilən terror hücumu nəticəsində iki rus diplomatının, habelə əfqan vətəndaşlarının həlak olması xəbərini kədərlə qarşılayırıq. Terrorla üzləşmiş bir dövlət olaraq Azərbaycan terrorçuluğun bütün forma və təzahürlərini qətiyyətlə pisləyir. Diplomatların həyatına qəsd qəbuledilməzdir. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidmətinin hadisə ilə bağlı açıqlamasında bildirilib.

"Terror hücumu nəticəsində həyatını itirən şəxslərin ailə üzvlərinə və yaxınlarına başsağlığı verir və yaralıların tezliklə sağalmasını diləyirik",- deyə açıqlamada qeyd olunub.

## Mövqelərimiz yenidən atəşə tutulub

Sentyabrın 4-dən 5-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Basarkeçər rayonunun Aşağı Şorca və Yuxarı Şorca yaşayış məntəqələri istiqamətində yerləşən mövqelərindən Kəlbəcər rayonunun Yellicə və Zivel yaşayış məntəqələri istiqamətində yerləşən ordumuzun mövqelərini müxtəlif növ atıcı silahlardan intensiv atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən adekvat cavab tədbirləri nəticəsində qarşı tərəf susdurulub.

## Müdafiə Nazirliyinin bəzi hərbi qulluqçularının qanunazidd əməlləri nəticəsində işgəncəyə məruz qalmış daha 288 şəxs müəyyən edilib

Məlumat verildiyi kimi, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Tərtər, Ağdam, Beyləqan rayonları istiqamətində yerləşən hərbi hissələrində xidmət edən bəzi hərbi qulluqçuların qanunazidd əməlləri ilə əlaqədar 2017-ci ilin may-iyun ayları ərzində həmin bölmələrin və digər hərbi hissələrin bir qrup hərbi qulluqçusunun cinayət-prosessual qanunvericiliyin tələblərinə zidd olaraq müvafiq səlahiyyətlərə malik olmadıqları halda qanunsuzluqlar törətməkdə şübhəli hesab etdikləri şəxsləri sorğulama prosesinə cəlb edib onlara fiziki və psixi zor tətbiq etməklə zərərçəkmiş şəxslərin ölümünə və digər ağır nəticələrə səbəb olan işgəncəyə, qeyri-insani və ləyaqəti alçaldan rəftara məruz qoymaları faktları ilə əlaqədar cinayət işləri üzrə icraat təzələnib və Azərbaycan Respublikasının baş prokurorunun birinci müavini tərəfindən prosessual rəhbərliyi həyata keçirilən istintaq qrupu tərəfindən 2021-ci il dekabrın 16-dan bütün istiqamətlər üzrə intensiv istintaq hərəkətləri aparılmaqdadır.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, ötən müddətdə işgəncəyə və digər qanunsuz əməllərə məruz qalmış daha 288 şəxs müəyyən edilərək zərərçəkmiş şəxs qismində tanınmaqla işin halları üzrə tam, hərtərəfli dindirilib, onların məhkəmə-tibbi ekspertizadan keçirilmələri təmin edilib. Beləliklə, işgəncə faktları üzrə əvvəlki istintaq zamanı zərərçəkmiş kimi tanınmış şəxslərlə birlikdə cinayət işləri üzrə indiyədək ümumilikdə 405 zərərçəkmiş şəxs müəyyən olunub.

İş üzrə zərərçəkmiş şəxslərin, habelə qanunsuz əməllərə yol vermiş hərbi qulluqçuların müəyyən edilərək dindirilməsi, eləcə də cinayət təqibi üzrə bütün halların hərtərəfli, tam və obyektiv araşdırılması istiqamətində tədbirlər davam etdirilir.

2017-ci ilin may-iyun aylarında dövlətə xəyanət faktlarının araşdırılması ilə əlaqədar işgəncəyə, fiziki və ya psixi təsirə, digər qanunsuzluqlara məruz qalan, lakin zərərçəkmiş şəxs qismində tanınmayan şəxslərdən Baş Prokurorluğun 961 - Çağrı Mərkəzi, 012-361-16-47 nömrəli telefon, habelə contact@prosecutor.gov.az elektron poçt ünvanı, eləcə də prokurorluğun sosial şəbəkələrdəki səhifələri (instaqram, feysbuk, teleqram, tviter) vasitəsilə əlaqə saxlamaqla dindirilmələrindən ötrü istintaqa gəlmələri xahiş olunur.

Əvvəlki istintaq zamanı işgəncələr nəticəsində ölməsi müəyyən edilmiş şəxslərdən əlavə Təmkin Nizamioğlunun da işgəncələrə məruz qalması nəticəsində aldığı xəsarətlərdən xəstəxanada vəfat etməsi barədə sübutlar əldə edildiyindən, onun meyiti ekshumasiya edilib və keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyi ilə də bu hal təsdiq olunub. Cinayət-prosessual qanunvericiliyə uyğun olaraq həmin şəxsin yaxın qohumunun zərərçəkmiş şəxsin hüquqi varisi qismində tanınması təmin edilib.

Cinayət işinin istintaqı zamanı ayrı-ayrı hərbi qulluqçulara işgəncə verməsi, onları qanunsuz azadlıqdan məhrum etməsi və digər cinayət əməlləri ilə bağlı əsaslı şübhələr müəyyən edilən Orucov Bəkir Şirin oğlu və Əhmədov Ramil Bəşir oğlu Cinayət Məcəlləsinin 126.3-cü (ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olan qəsdən sağlamlığa ağır zərər vurma), 145.3-cü (qanunsuz azadlıqdan məhrumetmə), 293.3-cü (işgəncə, işgəncə hesab olunmayan qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza), 341.2.2-ci (vəzifə səlahiyyətlərini aşma) və 341.2.3-cü maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmənin qərarları ilə həbs qətimkan tədbiri seçilib.

Həmçinin Məmmədov Rahib Ramazan oğlu Cinayət Məcəlləsinin 145.3-cü, 293.2-ci, 341.2.2-ci və 341.2.3-cü maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə barəsində məhkəmə qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Eyni zamanda hazırda cəza çəkən Cümşüdov Qurban Qədim oğlu və Ağadadaşov Cavid Zahid oğlunun məhkum edildikləri hallardan başqa çoxsaylı zərərçəkmiş şəxslərə qarşı qanunsuz əməllərə yol vermələrinə əsaslı şübhələr müəyyən edildiyindən Cinayət Məcəlləsinin 145.3-cü, 293.2-ci, 341.2.2-ci, 341.2.3-cü və 128-ci (qəsdən sağlamlığa yüngül zərər vurma) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək onlara müvafiq ittiham elan edilib.

Beləliklə, cinayət işləri üzrə icraatın təzələnməsindən ötən müddət ərzində ümumilikdə 17 nəfər Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət məsuliyyətinə cəlb edilib, onlardan 12 nəfər barəsində məhkəmənin qərarları ilə həbs qətimkan tədbiri seçilib, 1 nəfər barəsində axtarış elan olunmuş, 4 nəfər isə başqa cinayətlərə görə cəzaçəkmə müəssisələrində cəza çəkdikləri nəzərə alınmaqla barələrində qətimkan tədbiri seçilməyib.

Əlavə istintaqın aparılması üçün prokurorluğun protesti əsasında məhkəmələr tərəfindən ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılan əvvəllər dövlətə xəyanət ittihamı ilə barələrində cinayət təqibi aparılıb, lakin sonradan bu hal öz təsdiqini tapmamaqla, hərbi xidmət əleyhinə və digər cinayətlərə görə məhkum olunmuş 26 şəxs barəsində cinayət təqibi ilə bağlı bütün hallar hərtərəfli, tam və obyektiv araşdırılaraq, onlardan 19 şəxs barəsində cinayət təqibinə bəraətverici əsaslarla, digər 7 şəxs barəsində olan təqibə müəyyən epizodlar üzrə bəraətverici, bir qisim epizodlar üzrə isə bəraətverici olmayan əsaslarla xitam verilməsi haqqında qərarlar qəbul edilib.

Həmçinin Hüseynov Mehman Telman oğlu və Ağazadə Elxan Kəmaləddin oğlu barələrində dövlətə xəyanət ittihamı ilə aparılmış cinayət təqibinə öldüklərinə görə bəraətverici əsaslar olmadan xitam verilməsi haqqında qəbul edilmiş 2017-ci il 19 dekabr tarixli qərarlar qanunsuz və əsassız olduğundan Azərbaycan Respublikasının baş prokuroru tərəfindən ləğv edilib və onlarla əlaqədar bütün halların tam, hərtərəfli və obyektiv araşdırılmaqla yekun qərarların qəbul edilməsi təmin ediləcək.

Bununla yanaşı, aparılan istintaq zamanı əldə edilmiş mötəbər sübutlar əsasında əvvəllər istintaqı aparılmaqla məhkəməyə göndərilmiş 3 cinayət işi üzrə dövlətə xəyanət və digər maddələrlə təqsirli bilinərək müxtəlif müddətlərdə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş ümumilikdə 19 şəxs barəsində Azərbaycan Respublikasının baş prokuroru tərəfindən yeni açılmış hallarla əlaqədar həmin şəxslər barəsində olan məhkəmə qərarlarına yenidən baxılması üçün Azərbaycan Respublikasının Ali Məhkəməsinin Plenumuna müraciət edilib.

İstintaqın gedişatı barədə ictimaiyyətə əlavə məlumat veriləcək.

# Ermənistan riyakarlığından əl çəkmir

## İşğalçı ölkə öhdəsinə götürdüyü müddəaları yubatmağa yönəlik mövqe nümayiş etdirir, ard-arda təxribatlar törədir

Ötən ayın 31-də Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə keçirilən növbəti - dördüncü görüş də əvvəlki üç görüşdə olduğu kimi, Zəfər komandanı İlham Əliyevin diplomatik üstünlüyü ilə başa çatdı. Brüsseldəki digər görüşlərdə olduğu kimi, son görüşdə də rəsmi Bakının maraqlarına uyğun olaraq, "Qarabağ", "Minsk qrupu", "status" ifadələri işlədilmədi. Baxmayaraq ki, Brüsseldəki danışıqlarda erməni tərəfi müqavimət göstərirdi və real nəticələrin əldə olunmasının qarşısını almaq üçün cəhdlər edirdi. Lakin onların bu cəhdləri də həmişəki kimi uğursuz oldu.

Bu, görüşdən sonra Ermənistanın baş naziri Nikol Paşinyanın artıq bölgədəki mövcud reallıqları qəbul etməsi ilə bağlı açıqlamalarından da aydın sezilir.

### Cənubi Qafqazda sülhün təminatçısı Azərbaycandır

Xüsusi vurğulayaq ki, Qalib Komandan İlham Əliyev sözügedən Brüssel görüşünə böyük üstünlüklə yollanmışdı. Ermənistanın növbəti təxribatına cavab olaraq "Qisas" cavab əməliyyatının keçirilməsi və ordumuzun Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəkliklərin nəzarətə götürülməsi buna bariz nümunədir. Eləcə də yeni Laçın avtomobil yolunun vaxtından xeyli əvvəl istifadəyə verilməsi ilə Laçın şəhəri, Zabux, Sus kəndlərinin boşaldılması bu prosesin tərkib hissəsi idi.

Bütün bu sadalananlar isə Azərbaycan tərəfinin 10 noyabr üçtərəfli Bəyanatda nəzərdə tutulmuş bütün öhdəlikləri vaxtından əvvəl reallaşdırdığını, Cənubi Qafqazda sülhün bərqərar olmasına hər cür töhfə verdiyini təsdiqləyirdi.

Aİ Şurasının prezidenti Şarl Mişelin də üçtərəfli görüşdən sonra verdiyi bəyanatdan məlum olur ki, bu müzakirədə Azərbaycan və Ermənistan arasında dövlətlərarası münasibətləri tənzimləyən sülh müqaviləsi üzrə irəliləyiş üçün prosesin gücləndirilməsi haqqında hər iki tərəflə razılaşma əldə edilib.

### Ermənistanın bitməyən təxribatları

Ermənistan da dördüncü Brüssel görüşündə sülh müqaviləsi üzrə irəliləyiş üçün prosesin gücləndirilməsi ilə bağlı razılığını verib. Amma sonuncu üçtərəfli görüşün üzərindən ötən qısa zamanda Azərbaycana qarşı yeni təxribatlara əl atması bu işğalçı ölkənin növbəti riyakarlığını ortaya qoydu.

Belə ki, sentyabrın 2-də Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın Xankəndiyə qanunsuz səfər etməsi Ermənistan tərəfinin növbəti təxribatıdır.

Qanunsuz səfərlə bağlı Azərbaycan Xarici İşlər Nazirliyi tərəfindən də bildirilib ki, Azərbaycan və Ermənistan liderləri arasında Brüsseldə baş tutan növbəti görüşdən dərhal sonra Ermənistan rəsmisi tərəfindən məqsədyönlü şəkildə atılan bu qanunsuz addım görüş zamanı əldə edilmiş razılıqlara kölgə salmaqla yanaşı, Ermənistan tərəfinin normallaşma prosesində səmimi olmadığını açıq nümayiş etdirir: "Bu qanunsuz səfər Ermənistanın Azərbaycana qarşı ərazi iddiasının olmadığı, suverenlik və dövlət sərhədləri prinsiplərini qəbul etdiyinə dair bəyanatlarının səmimiyyətdən uzaq olduğunu göstərir. Bu həmçinin rəsmi Yerevan tərəfindən beynəlxalq vasitəçilərin səylərinə hörmətsizlikdir".

Onu da qeyd edək ki, sözügedən tarixdə bu ölkə daha bir təxribata əl atıb. Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Kəlbəcər rayonunun Yellicə yaşayış məntəqəsi istiqamətində yerləşən ordumuzun mövqelərini, həmçinin qeyd olunan mövqelərimizə təminat daşıyan 2 hərbi nəqliyyat vasitəsini atəşə tutub.

Göstərdiyimiz faktlar da bunu ortaya qoyur ki, işğalçı Ermənistan üçtərəfli görüşlərdə sülh üçün yalançı razılıq verərək, beynəlxalq aləmin gözü qarşısında hansısa rol oynayır. Pərdə arxasında isə əsl xislətini ortaya qoyaraq təxribat törətməkdən əl çəkmir.

### İşğalçının mina terroru

Laçında aşkarlanan xeyli sayda piyada əleyhinə minalar da bu ölkənin 10 noyabr üçtərəfli razılaşmasına riyakarlığını və üzərinə götürdüyü öhdəlikləri pozduğunu göstərir.

Müdafiə Nazirliyi və Minatəmizləmə Agentliyinin beynəlxalq humanitar hüquqa zidd olaraq Laçında aşkarlanan PMN-E növlü minalarla bağlı birgə bəyanatında da məlumat verilir ki, Laçın rayonu ərazisində piyada əleyhinə mina sahələrindən cari ilin 15 avqust tarixindən 31 avqust tarixinədək 1318 ədəd PMN-E növlü minalar aşkar edilib. Aşkar olunan minalar Vətən müharibəsindən sonra 2021-ci ildə Ermənistanda istehsal olunan minalardır.

Bəyanatda o da vurğulanır ki, beynəlxalq humanitar hüquqa əsasən, 1997-ci ildə qəbul edilmiş Ottava müqaviləsi piyada əleyhinə minaların istehsal edilməsi, saxlanılması, daşınması və istifadəsini qadağan edir: "Həmçinin Ermənistan işğaldan azad olunmuş ərazilərdə piyada əleyhinə minalar basdırmaqla 1949-cu il tarixli Cenevrə konvensiyalarının I Əlavə Protokolunun tələblərini pozur və bunu rəsmi şəkildə bəyan etməklə beynəlxalq ictimaiyyətə açıq hörmətsizlik nümayiş etdirir. Ermənistanın basdırdığı piyada əleyhinə mina sahələrinin miqyası və kütləviliyi mina terrorunun təzahürüdür. Bütün bunlar regionda sülhə və təhlükəsizliyə, ətraf mühitə qarşı qəsdən törədilmiş cinayətdir. Bununla isə Ermənistan düşmənçilik niyyətini bir daha sübut edir".

### Tarixi torpaqlarımıza qayıdışı ləngidən əsas səbəb

30 il ərzində Azərbaycanın əzəli torpaqlarını işğalda saxlayan ermənilər ərazilərimizdə külli miqdarda mina basdırıblar. Qarabağı və Şərqi Zəngəzuru mina tarlasına çevirərək, yollara, həyətlərə, evlərə, demək olar ki, hər daşın-qayanın altına piyada və tank əleyhinə mina döşəyiblər. Erməni faşistləri bu partlayıcı qurğular sayəsində dinc azərbaycanlılara, texnikaya, əraziyə mümkün qədər çox ziyan vurmaq məqsədi güdüblər.

Buna görədir ki, 44 günlük Vətən müharibəsi sayəsində torpaqlarımızı işğaldan azad edəndən sonrakı müddətdə tarixi ərazilərimizdə düşmənin basdırdığı mina təhlükəsi ilə qarşı-qarşıya qalmışıq. Üçtərəfli Bəyanatın imzalanmasından sonra Ermənistan tərəfindən Azərbaycanın işğaldan azad olunan ərazilərinə döşənmiş minaların partlaması nəticəsində xeyli sayda vətəndaşımız həlak olub, ciddi xəsarət alıb. Onların arasında KİV nümayəndələri də var.

İşğalçı Ermənistanın Qarabağ və Şərqi Zəngəzur ərazisində saysız mina basdırması keçmiş məcburi köçkünlərimizin dədə-baba yurdlarına qayıdışı prosesini ləngidir. Çünki belə geniş ərazilərin minalardan təmizlənməsi olduqca böyük zaman və resurs tələb edir. Hazırda Azərbaycanın qarşısında duran əsas problemlərdən biri işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsidir.

Elə əvvəlki üçtərəfli görüşlərdə olduğu kimi, dördüncü Brüssel görüşündə də müzakirə mövzularından biri işğaldan azad edilmiş ərazilərimizdə mina probleminin həlli ilə bağlı idi.

### Azərbaycana qarşı bütün təhlükələr yerindəcə məhv ediləcək

Görünən odur ki, Vətən müharibəsinin üzərindən ötən müddət ərzində Ermənistan öhdəliyinə götürdüyü və qeyd-şərtsiz əməl etməli olduğu müddəaların icrasını yubatmağa, pozmağa yönəlik mövqe nümayiş etdirir, təxribatlar törətməkdən əl çəkmir. Necə deyərlər, zaman dəyişir, amma erməninin faşist xisləti dəyişmir.

Brüsseldə Ermənistanın baş naziri iki dövlət arasında sülhə razı olduğunu bildirir, paralel olaraq, ölkəsi tərəfindən Azərbaycana qarşı ardıcıl təxribatlar törədilir.

Qəribə paradoksdur, deyilmi?!

Həm də Ermənistanın iç üzünü ortaya qoyan bariz nümunələrdir.

Əslində, Ermənistanın əsl simasını Prezident İlham Əliyev bir müddət əvvəl səsləndirdiyi fikirlərlə dəqiq ifadə edib: "Biz heç vaxt indiki hakimiyyətin xoş sözlərinə aldanmamalıyıq. Heç vaxt unutmamalıyıq ki, biz hansı qonşu ilə qonşuluqda yaşayırıq... Biz onu da bilməliyik ki, istənilən sülh müqaviləsi Ermənistan üçün sadəcə kağız parçası ola bilər... Biz istəyirik ki, müharibə dövrü başa çatsın, istəyirik ki, normal əlaqələr yaradılsın, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü, nəhayət, tanısın. Biz bunu istəyirik. Amma əgər biz görsək ki, dediyim kimi, bizim üçün təhlükə var, o təhlükə elə yerindəcə məhv ediləcək...".

Bəli, Ermənistan istəsə də, istəməsə də Azərbaycan onu regionda sülhə mənfi təsir göstərən təxribatçı əməllərinə son qoymağa məcbur edəcək və işğalçı ölkənin hansı mövqe tutmasından asılı olmayaraq, öz maraqlarını qətiyyətlə qoruyacaq.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ



## Sosial güvənliyin əsas şərti

### Cari ilin birinci yarısında ölkədə 33,5 min yeni iş yeri açılıb

**Əhalinin məşğulluğunun təmin edilməsi Azərbaycan dövlətinin yürütdüyü sosial siyasətin ana xəttini təşkil edir. Odur ki, yeni iş yerlərinin açılması davamlı xarakter daşıyır.**

Buna ilk növbədə qeyri neft-qaz sektorunun getdikcə irəliləməsi, iqtisadiyyatın diversifikasiyası və prioritet sahələrə irihəcmli investisiyaların yatırılması sayəsində yeni istehsal və emal müəssisələrinin fəaliyyətə başlaması zəmin yaradıb. Əmək qabiliyyətli insanların işlə təmin edilməsi üçün eləcə də yeni yollar axtarılır, məşğulluğun yeni formaları tapılır, bu məqsədlə daxili ehtiyat mənbələrindən geniş istifadə olunur.

Beləliklə, bu il avqustun 1-i vəziyyətinə ölkədə iqtisadi fəal əhalinin sayı 5 milyon 342,1 min nəfər olub. Onlardan 5 milyon 34,3 min nəfərini məşğul əhali təşkil edib. İyulun 1-i vəziyyətinə müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin sayı 1 milyon 720 min nəfər olub. O cümlədən iqtisadiyyatın dövlət sektorunda 901,2 min, qeyri-dövlət sektorunda 818,8 min nəfər çalışıb. Neft-qaz sektorunda 30,7 min, qeyri neft-qaz sektorunda isə 1 milyon 689,3 min nəfər cəmləşib.

Dövlət Statistika Komitəsi bu ilin 6 ayında açılmış yeni iş yerləri barədə də məlumat verib. Həmin müddətdə Azərbaycanda 33,5 min yeni iş yerinin açıldığı bildirilib. Bu da bir daha təsdiqləyir ki, əhalinin məşğulluğunun təmin edilməsi dövlətin prioritetləri sırasında qalmaqdadır.

Yeni iş yerlərinin 92 faizi qeyri-dövlət sektorunda açılıb. Yaradılan iş yerlərinin regionlar üzrə bölgüsü də maraq doğurur. Belə ki, iş yerləri təkcə paytaxtda və iri şəhərlərdə deyil, bütün bölgələrdə açılır. Məsələn, yarım ildə açılan yeni iş yerlərinin 81,1 faizi Bakı şəhərinin payına düşsə də, 0,4 faizi Naxçıvan Muxtar Respublikasında, 18,5 faizi digər regionlarda yaradılıb. Regionlarda açılan iş yerlərinin 3,9 faizi Abşeron-Xızı, 2,6 faizi Şəki-Zaqatala, 2,1 faizi Gəncə-Daşkəsən, 2 faizi Quba-Xaçmaz, 2 faizi Şirvan-Salyan,1,2 faizi Lənkəran-Astara, 1 faizi Qarabağ, 1 faizi Qazax-Tovuz, 0,9 faizi Mərkəzi Aran, 0,8 faizi Mil-Muğan, 0,6 faizi Dağlıq Şirvan və 0,4 faizi Şərqi Zəngəzur iqtisadi rayonlarındadır.

İş yerləri həm mövcud, həm də yeni yaradılmış və fəaliyyətini bərpa etmiş müəssisə və təşkilatlarda açılıb. Bu müəssisə və təşkilatlarda onların payı müvafiq olaraq belədir: 89,7 faiz, 9,4 faiz və 0,5 faiz. Yeni iş yerlərinin qalan 0,4 faizi digər tədbirlər üzrə yaradılıb.

Yaradılan iş yerləri iqtisadiyyatın və sosial sferanın müxtəlif sahələrini əhatə edir. Hüquqi şəxslər tərəfindən yaradılmış iş yerlərinin 21,8 faizi tikinti, 19,4 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 10,3 faizi emal sənayesi, 8,2 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 6,9 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,6 faizi peşə, elmi və texniki fəaliyyət növləri üzrə açılıb. Yaradılan iş yerlərinin 5,1 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 4,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,5 faizi informasiya və rabitə, 12,1 faizi digər iqtisadi fəaliyyət növlərinə aid olub.

Bununla yanaşı, ilin birinci yarısında ölkədə 4,3 min iş yeri bağlanıb. Bunların 43,2 faizi qeyri-dövlət sektorunun payına düşüb. İş yerlərinin bağlanması ixtisarlarla, eləcə də bir sıra müəssisə və təşkilatların fəaliyyətini dayandırması ilə əlaqədar olub.

Əhalinin işlə təmin olunması sahəsində özünüməşğulluq da geniş yer alır. Məlum olduğu kimi, bu proqram Prezidentin 7 aprel 2016-cı il tarixli "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" sərəncamına əsasən həyata keçirilir. Aztəminatlı ailələrin sosial rifahını yüksəltmək məqsədilə aparılan sosial siyasət sahəsində özünüməşğulluq tədbirlərinə xüsusi yer ayrılır. Prezidentin tapşırığı ilə bu proqramın icrası zamanı şəhid ailələrinə və qazilərə üstünlük verilir.

Özünüməşğulluq proqramına cəlb olunmuş şəxslərin biznes planlarına uyğun mal və materiallar formasında aktivlərlə təminatı davam edir. Keçən ayın təkcə bir həftəsi ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən daha 571 nəfər özünüməşğulluq proqramı iştirakçısı aktivlərlə təmin olunub. Onların bir hissəsi şəhid ailələrinin üzvləri və qazilərdir.

Proqram iştirakçıları onlara verilmiş aktivlər üzrə öz kiçik biznes sahələrini yaradırlar. Özünüməşğulluq proqramına cəlb edilən işsiz və işaxtaran şəxslər üçün əvvəlcə kiçik biznesin təşkili üzrə bilik və bacarıqlara malik olmaqları məqsədilə təlimlər təşkil edilir, sonra onlar aktivlərlə təmin olunurlar.

Bütün bunlar göstərir ki, ölkəmizdə əhalinin məşğulluğunun təmin edilməsi gündəmdən düşməyən mühüm məsələ olaraq qalır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Orta Asiyadan göndərilən yüklərin Avropaya çatdırılmasında "ADY Konteyner"in xidmətindən istifadə edilib

**"ADY Konteyner" MMC-nin və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Qara dənizdə birgə layihəsi olan, əsasən Çindən Avropaya və əks istiqamətdə yükdaşımalarda istifadə olunan "Rəsul Rza" fider gəmisi ilə ilk dəfə Orta Asiyadan göndərilən yüklərin Rumıniyanın Konstanta limanına çatdırılması həyata keçirilib.**

MMC-dən AZƏRTAC-a bildirilib ki, yükü mineral gübrə olan 24 konteynerdən ibarət blok qatar Özbəkistandan yola salınıb. Qatar Türkmənistanın Türkmənbaşı limanına çatdıqdan sonra 40 futluq konteynerlər Xəzər dənizində fider daşımaları həyata keçirən "Mahmud Rəhimov" gəmisi vasitəsilə Ələt limanına gətirilib. Burada platformalara yüklənərək dəmiryolu ilə Gürcüstanın Batumi limanına, daha sonra isə "Rəsul Rza" fider gəmisi ilə Konstantaya çatdırılıb.

Bu xidmətə Orta Asiyadan gələn yüklərin cəlb edilməsi yeni geosiyasi vəziyyətdə ölkəmizin Çin-Avropa ilə yanaşı, Orta Asiya-Avropa və əks istiqamətdə nəqliyyat bağlantısının gücləndirilməsində rolunun artmasına, bu marşrut üzrə yüklərin daşınması prosesində davamlılığın təmin olunmasında əsas iştirakçılardan birinə çevrilməsinə xidmət edəcək.

## Qazaxda günəş enerjisi ilə işləyən artezian istifadəyə verilmişdir

**Qərb bölgəsində ilk dəfə olaraq günəş enerjisi ilə işləyən artezian istifadəyə verilmişdir. Yaponiyanın Azərbaycandakı səfirliyinin maliyyə dəstəyi ilə Qazax rayonunun Bala Çaylı kəndində reallaşan layihənin həyata keçirilməsində əsas məqsəd əkin sahələrini su ilə təmin etmək, eləcə də süni yaradılmış meşələrin qurumasının qarşısını almaqla ətraf mühitin yaşıllaşdırılmasına dəstək olmaqdır.**



Açılış mərasimində Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Vada Cüniçi, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı Xidmətinin rəisi Xalıqverdi Hüseynov, Qərb-Resurs Vətəndaş Cəmiyyətinin İnkişafına Dəstək İctimai Birliyinin sədri Ramil Göyüşov və Bala Çaylı kəndinin sakinləri iştirak etmişlər.

Tədbiri giriş sözü ilə layihənin icraçısı Ramil Göyüşov açaraq Yaponiya ilə Azərbaycan dostluğunun töhfəsi olan layihənin əhəmiyyətindən söz açmış və Qazaxda əhəmiyyətli bir işin həyata keçirilməsinə görə Yaponiyanın Azərbaycandakı səfirliyinə minnətdarlığını bildirmişdir. 54 hektar əkin sahəsinin və 22 hektar meşə zolağının suvarılması üçün nəzərdə tutulan və günəş enerjisi ilə işləyən artezian quyusunun gücünün saatda 25 kubmetr təşkil etdiyini diqqətə çatdırmışdır.

Sonra RİH-in başçısı Rəcəb Babaşov çıxış edərək artezian quyusunun istifadəyə verilməsi münasibətilə kənd sakinlərini təbrik etmiş, rayonda əhəmiyyətli bir layihənin reallaşmasına görə Yaponiya dövlətinə və səfirinə, layihə rəhbərlərinə minnətdarlığını bildirmişdir.

Səfir Vada Cüniçi günəş enerjisi ilə işləyəcək yeni artezian quyusunun istifadəyə verilməsi münasibətilə kənd sakinlərini təbrik etmiş, Yaponiya hökumətinin Azərbaycan Respublikasının davamlı inkişafına yönəlmiş əməkdaşlığa böyük əhəmiyyət verdiyini qeyd etmişdir. Vurğulamışdır ki, son illər Yaponiya dövlətinin maliyyə dəstəyi ilə Qazaxda 5 layihə icra edilmişdir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xidmət rəisi Xalıqverdi Hüseynov isə çıxışında Yaponiya ilə Azərbaycan dövlətləri arasında olan əməkdaşlıq əlaqələrindən, eləcə də icra olunan layihələrin əhəmiyyətindən danışmışdır.

Sonda artezian işə salınmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## "Şimal-2" Elektrik Stansiyasından 8,92 milyard kilovat-saat elektrik enerjisi istehsal olunub

"Şimal-2" Elektrik Stansiyası istismara verildiyi tarixdən 2022-ci ilin avqust ayınadək ümumilikdə 8,92 milyard kilovat-saat elektrik enerjisi istehsal olunub.

AZƏRTAC Energetika Nazirliyinə istinadən xəbər verir ki, layihə gücü 409 meqavat olan "Şimal-2" Elektrik Stansiyası 2019-cu il sentyabrın 5-də Prezident İlham Əliyevin iştirakı ilə istismara verilib.

## Neft qiymətləri bahalaşıb

Dünya birjalarında neft qiymətləri bahalaşıb. AZƏRTAC xəbər verir ki, Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 2,01 dollar artaraq 95,03 dollar, Nyu Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 1,67 dollar bahalaşaraq 88,54 dollar olub.

## Qeyri-neft məhsullarının ixrac dinamikası yüksələn xətlə inkişaf edir

**Azərbaycan dünyada neft ölkəsi kimi tanınır. Bu da təsadüfi deyil. Ölkəmizdə qədim zamanlardan neftdən istifadə olunub və o, xaricə ixrac edilib. Elə buna görə də ölkəmizə "Odlar diyarı" deyilib.**

Dünyanın iqtisadi inkişafında neft mühüm rol oynayır. Elə indinin özündə də baş verən müharibələrin, demək olar ki, hamısı neft mənbələrinin ələ keçirilməsi ilə bağlıdır. Hazırda Rusiya-Ukrayna müharibəsi ilə əlaqədar enerji daşıyıcılarının qiymətinin baha olması üzündən dünyada yeni iqtisadi böhran başlanıb. Düzdür, hələlik bu proses ilkin mərhələdədir. Onun daha da dərinləşmək ehtimalı yüksəkdir. Ən çox məhsul istehsal edən ölkələrdən biri olan Almaniyada neft və qazın kəskin bahalaşması ilə bağlı istehsal çox aşağı düşüb.

Hazırda enerji ixracatçısı olan ölkələr yüksək gəlir əldə edirlər. Ötən illərin təcrübəsi göstərir ki, neft və qazın qiyməti bəzən yüksəlir, bəzən də aşağı düşür. Belə hal uzunmüddətli olduqda xammal ixracatçısı olan ölkələr çətin duruma düşürlər. İki ildən çox davam edən koronavirus pandemiyası onu göstərdi ki, sənayesi hərtərəfli inkişaf edən ölkələr belə çətin vəziyyətdən daha az ziyanla çıxa bilirlər.

Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkənin neft və qazdan asılılığını aradan qaldırmaq üçün geniş islahatlar proqramının icrasına start verildi. Aparılan islahatlar sayəsində iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı uğurlu nəticələr əldə olundu. Bu gün Azərbaycan daxili tələbatı ödəməklə yanaşı, dünya bazarına qeyri neft-qaz sənayesi, kənd təsərrüfatı məhsulları ixrac edir. Ölkəmiz həmçinin kosmik xidmətləri ixrac edən azsaylı ölkələrdəndir. Açıqlanan statistik rəqəmlərdən aydın görünür ki, qeyri-neft sektoru üzrə məhsulların istehsal və ixrac dinamikası yüksələn xətt üzrə inkişaf edir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin təqdim etdiyi "İxrac icmalı"nın cari ilin yanvar-iyul aylarındakı hesabatında Azərbaycanın ümumi ixracının 22,6 milyard, qeyri-neft sektoru üzrə ixracın 1,7 milyard dollar təşkil etdiyi bildirilir. Qeyri-neft sektoru üzrə ixrac ötən ilin 7 ayı ilə müqayisədə 24,2 faiz artıb.

Bu ilin 7 ayı ərzində meyvə-tərəvəz məhsulları keçən ilin eyni dövrü ilə müqayisədə 11,5 faiz artaraq 376,9 milyon dollar təşkil edib. Müvafiq dövr ərzində kimya sənayesi məhsullarının ixracı 3,6 dəfə, alüminium və ondan hazırlanan məmulatların ixracı 99, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 28,1, pambıq lifi ixracı 5,4, çay ixracı isə 57,2 faiz artıb. Beləliklə, həmin dövrdə ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı birinci, tomat (pomidor) ikinci, karbamid isə üçüncü yerdə qərarlaşıb.

Hesabat dövründə Rusiya Federasiyasına 462,2 milyon, Türkiyəyə 462,2 milyon, Gürcüstana 107,6 milyon, İsveçrə Konfederasiyasına 101 milyon və ABŞ-a isə 59,4 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

Bu ilin iyul ayı üzrə ixrac 4,1 milyard dollar təşkil edib. Qeyri-neft sektoru üzrə ixracda artım 17,2 faiz təşkil etməklə 224,6 milyon dollara çatıb. Ay ərzində yeyinti məhsulları üzrə ixrac 43,7 faiz artaraq 61,7 milyon dollar, qeyri-yeyinti məhsulları üzrə isə 9,5 faiz artaraq 162,9 milyon dollar təşkil edib.

İyul ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası birinci, Türkiyə ikinci, Gürcüstan isə üçüncü yerdə olub. İxrac edilən qeyri-neft sektoruna aid malların siyahısında karbamid birinci, ilkin formalı polipropilen ikinci və şaftalı meyvəsi üçüncü yeri tutub.

"İxrac icmalı" tərəfindən qeyri-neft sektoru üzrə bu ilin yanvar-iyul aylarında həyata keçirilən ixracla bağlı qeyri-dövlət və dövlətə məxsus ixracatçı subyektlərin reytinqi də tərtib edilib. Sənəddən aydın görünür ki, ildən-ilə qeyri-neft sektorunda özəl sektorun payı artır.

Beləliklə, yanvar-iyul ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: "MKT İstehsalat Kommersiya" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "STP Alüminium" MMC, "P-Aqro" MMC, "Şimal AqroPark" MMC, "Rose Servis" MMC, "Almeyvə" MMC, "Mors Trading" MMC, "ZR-78 Company" MMC, Şirinov Elvin Valeh oğlu.



Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Socar Polymer" MMC, "Azəralüminium" MMC, "AzerGold" QSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərenerji" ATSC, "Azərbaycan Hava Yolları" QSC, "Azəripək" MMC, "Geofizika və Geologiya İdarəsi", Naxçıvan MR Dövlət Energetika Xidməti.

Bu ilin 7 ayında "Azərkosmos" tərəfindən dünyanın 35 ölkəsinə 15,1 milyon dollar dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac olunub. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 83 faizini təşkil edib, iyul ayında isə "Azərkosmos" tərəfindən dünyanın 30 ölkəsinə 2,1 milyon dollar dəyərində xidmət ixrac olunub. Həmin dövrdə peyk telekommunikasiya və optik peyk xidmətlərinin ixracının ilk beşliyində 3,9 milyon dollar ilə Birləşmiş Krallıq, 3,2 milyon dollar ilə Fransa, 2,6 milyon dollar ilə Lüksemburq, 1,4 milyon dollar ilə BƏƏ və 0,8 milyon dollar ilə Pakistan qərarlaşıb.

Cari ilin yanvar-iyul aylarında Azexport.az portalına 288,4 milyon dollar dəyərində ixrac sifarişləri daxil olub. Təkcə iyul ayında Azexport.az portalına daxil olan ixrac sifarişlərinin dəyəri 40 milyon dollar təşkil edib. İxrac sifarişlərində şərab, meyvə şirəsi, tomat, mineral su, tütün, fındıq ləpəsi, fındıq qabığı, biyan kökü, toyuq əti, şaftalı, mühərrik yağı, tibbi zəli, və s. məhsullar üstünlük qazanıb. Məlumat üçün bildirək ki, 2017-ci ilin yanvar ayından bu ilin 31 iyul tarixinə kimi (67 ay ərzində) portala dünyanın 145 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 2,98 milyard dollar təşkil edib.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Yardımlıda taxıl əkini üçün 3500 hektardan çox sahədə şum aparılacaq

**Yardımlıda taxıl əkini üçün 3500 hektardan çox sahədə şum işinin aparılması nəzərdə tutulub.**

Rayon statistika idarəsinin rəisi Aydın Ağayev AZƏRTAC-a bildirib ki, yay şumunun vaxtında və keyfiyyətli vurulması ziyanvericilərin məhv olmasına, torpağın münbitliyinin artırılmasına və növbəti illərdə məhsuldarlığın yüksəldilməsinə müsbət təsir göstərir.

Yardımlıda sentyabrın 1-nə olan məlumata görə, payızlıq taxıl əkini məqsədilə 964 hektar sahədə şum işləri aparılıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 654 hektar çoxdur. Aparılmış şumun 919 hektarı ailə kəndli və ev təsərrüfatlarının, 45 hektarı isə kənd təsərrüfatı təyinatlı müəssisələrin payına düşür. 2023-cü ilin taxıl məhsulu üçün 3500 hektardan çox sahədə şum vurulması nəzərdə tutulub. Hazırda rayonda əkin sahələrinin şumlanması işi mütəşəkkil şəkildə davam etdirilir.

# Elm, təhsil və istehsalat əlaqələrinin inteqrasiyası qlobal çağırışlar kontekstində

Məlum olduğu kimi, Prezident İlham Əliyevin 28 iyul 2022-ci il tarixli fərmanına əsasən, elm və təhsilin qarşılıqlı əlaqəsinin möhkəmləndirilməsi və bu sahələrdə idarəetmənin təkmilləşdirilməsi məqsədilə Təhsil Nazirliyi Elm və Təhsil Nazirliyi adlandırılmışdır. Elm sahəsində dövlət siyasətinin və tənzimlənmənin həyata keçirilməsi, elmi müəssisə və təşkilatların fəaliyyətlərinin əlaqələndirilməsi və istiqamətləndirilməsi ilə bağlı səlahiyyətlər bu nazirliyə həvalə edilmişdir.

Fərman elm, təhsil və istehsalat vektoru üzrə inkişafın reallaşdırılması istiqamətində həyata keçirilən sistemli və ardıcıl siyasətin tərkib hissələri olan "Azərbaycan-2020: gələcəyə baxış inkişaf konsepsiyası", "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası", "Sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı", "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" kimi dövlət proqramlarının məntiqi davamı ilə əlaqədar fəaliyyət perspektivlərinə hədəflənmişdir.

Elm, təhsil və istehsalat vektoru üzrə inkişafın klassik anlayışına görə elm istehsalat tərəfindən müəyyənləşdirilmiş fundamental və tətbiqi problemlər və onların arasındakı əlaqələr üzrə tədqiqatlar aparır, nəticələri monoqrafiyalar, dərsliklər, məqalələr, konstruktiv-texnoloji işləmələr, yeni materiallar, kəşflər, ixtiralar, normativ materiallar və s. şəklində təhsilə və istehsalata ötürür. Təhsil bir tərəfdən, biliyin istifadəçisi, digər tərəfdən, yaradıcısı kimi elm və istehsalat üçün kadr hazırlığını həyata keçirir. İstehsalat isə elmin və təhsilin təklif etdiyi yeni texnika və texnologiyalar əsasında məhsul istehsal edir, elmin qarşısında fundamental və tətbiqi problemlər qoyur və təhsil sisteminin hazırladığı mütəxəssisləri işlə təmin edir. Bu baxımdan ölkə iqtisadiyyatının mövcud və perspektiv təhdidlərə qarşı dayanıqlı olması üçün elm, təhsil və istehsalat vektoru üzrə inteqrasiyanı davamlı iqtisadi inkişafın əsas resursuna çevirmək, istehsaledici bilikləri və innovasiyaları yeni məhsullara və texnologiyalara transformasiya etmək, ölkə üçün prioritet əhəmiyyət kəsb edən sahələrdə milli texnoloji platformalar formalaşdırmaq, yüksəkixtisaslı kadr hazırlığına diqqəti artırmaq yeni nazirliyin qarşısında duran əsas vəzifələrdir.

Təcrübə göstərir ki, elm, təhsil siyasəti və menecmentinin müxtəlif mərkəzlərdən həyata keçirilməsi "fundamental tədqiqatlar, tətbiqi tədqiqatlar və sənaye istehsalı" siklinin komponentləri arasında əlaqələrin, nəticədə isə elm, təhsil simbiozundan yaranan sinerqetik effektin zəifləməsinə səbəb olur. Nəticədə elmi-tədqiqat sektorunun inkişaf tempi ölkə iqtisadiyyatının inkişaf tempindən geri qalır və sahibkarlığın yeni texnologiyalara olan ehtiyaclarına cavab vermir.

Elm, təhsil və istehsalat əlaqələrinin vahid mərkəzdən idarə olunmasının yeni arxitekturasının formalaşdırılmasında texnoloji inkişaf etmiş ölkələrin qabaqcıl təcrübəsindən istifadə etmək səmərəli olardı. Bu ölkələrdə son illər həyata keçirilən islahatlar həm elmin institusion təşkili və funksional formaları, həm də dövlət menecmenti stili üzrə xarakterikdir. Məsələn, ABŞ-da elm, təhsil və istehsalat əlaqələrinin inteqrasiyası məqsədilə aparıcı universitetlərin və sənaye şirkətlərinin elmi potensialları Kooperativ Tədqiqat mərkəzləri çərçivəsində konsentrasiya edilərək prioritet problemlərin həllinə yönəldilmişdir. Fransanın "Ali təhsil və elm haqqında" qanununda elm və təhsil birlikləri arasındakı əlaqələri daha da möhkəmləndirmək və müxtəlifləşdirmək, mütəxəssislərin ixtisas səviyyələrini və tədqiqatların keyfiyyətini yüksəltmək, tədqiqatların nəticələrini iş yerlərinə transformasiya etmək imkanı verən elm, təhsil və iqtisadiyyat əlaqələrinin hibrid modelinin yaradılmasına üstünlük verilmişdir. Almaniya, Böyük Britaniya və Yaponiyada isə fundamental elmi-tədqiqatların konkret nəticələrə istiqamətləndirilməsi trendi çərçivəsində elmə dövlət dəstəyinin yeni strukturu işlənmiş, elmi inkişafın maliyyə qaynaqlarının diversifikasiya mexanizmləri yaradılmış, elmə və işləmələrə yatırım edən müəssisələrə vergi stimullarının təkmilləşdirilməsi sistemi tətbiq olunmuşdur. Yeri gəlmişkən, qeyd edək ki, elmi-tədqiqatlara bank kreditləri, dövlət subsidiyaları və vergi kreditlərinin verilməsi, innovasion qrantlardan və intellektual mülkiyyətdən gələn gəlirlərin vergi ilə yüklənməsində əlavə güzəştlərin nəzərdə tutulması kimi stimullaşdırma formaları ölkəmiz üçün də xarakterik ola bilər. Qərb universitetləri, bir qayda olaraq, sənaye və texnoloji mühütlə sıx əlaqələri ilə fərqlənirlər. Məsələn, Almaniyada elm çoxplanlı struktura malikdir və əsas aksent elmi-tədqiqatların nəticələrinin praktiki reallaşdırılma alətlərinə yönəldilir. Böyük Britaniyada elmi-tədqiqatların ölkə iqtisadiyyatına yönəldilməsinin oturuşmuş modeli mövcuddur. Bu model universitetlərdə müvafiq strukturlar kompleksi - texnologiyaların transfert mərkəzləri, xüsusi dövlət fondları, texnoparklar və s. vasitəsilə fəaliyyət göstərir. Ali məktəb elminə investisiya yeni yaradılmış şirkətlərdən vergilər, yeni iş yerləri, perspektivli mütəxəssislər, sertifikasiya üçün hazır olan innovasion məhsullar və s. şəklində dövlət üçün də preferensiyalar yaradır.

Texnoloji cəhətdən inkişaf etmiş ölkələrdə elm, təhsil və istehsalat əlaqələrinin inteqrasiyasında tədqiqat universitetlərinin, biznes-məktəblərin və tərəfdaşlıq proqramlarının tətbiqinə böyük önəm verilir. Tədqiqat universitetində tədqiqat və təhsil prosesləri sintez edilərək həm biliyə çevrilir, həm də texnoloji, iqtisadi və sosial innovasiyalar həyata keçirə bilən mütəxəssis formalaşdırılır. Bu universitetlərdə tələbə modeli iki aparıcı fəaliyyət sahəsini özündə əks etdirir - tədris və tədqiqat işi. Tələbə tədris prosesinin müxtəlif formalarında və elmi cəmiyyət mühitində reallaşdırılan proseslərdə (müsabiqə, konfrans, elmi jurnallarda çap, eksperimentlərin aparılması və s.) iştirak edir. Elm və təhsil proseslərində iştirak tələbədə çeviklik, digər mühitlərə asanlıqla adaptasiya olmaq, elmi cəmiyyətlər, xarici tərəfdaşlar, mərkəzlər və s. arasında qarşılıqlı fəaliyyət qurmaq kimi vacib kompetensiyalar formalaşdırır. Tədqiqat universitetlərində innovasion təhsil proqramlarının infrastrukturu yeni arxitektura üzrə qurulur. Universitet nəzdində elmi-innovasiya kompleksləri, elmi-tədqiqat və analitik mərkəzlər yaradılır, yüksək texnoloji avadanlıqlarla təminat və mütəxəssislərin məqsədli hazırlığı həyata keçirilir, məzunlara dəstək sistemi yaradılır və tədris prosesinə yüksəkixtisaslı tədqiqatçı mütəxəssislər cəlb edilir.

Tədqiqat universitetlərində yeni texnologiyaların, tədqiqat və işləmələrin nəticələrinin kommersiyalaşmasını sürətləndirmək məqsədilə texnopark, texnoloji inkubator, startap və şəbəkə innovasiya strukturları kimi xüsusi statusa malik innovasion qurumlardan geniş istifadə olunur. Bu qəbildən olan fəaliyyət meydançalarında elmlə istehsalat arasında ümumi maraqlar formalaşır, təhsilin səviyyəsi yüksəlir və işçilərin yeni texnologiyalar üzrə təkmilləşdirilməsi həyata keçirilir. Tədqiqat universitetlərinin innovasion qurumları yeni texnologiyaların kommersiya reallaşdırılmasını həyata keçirir, gənc mütəxəssislər üçün yeni iş yerləri açır və yerləşdiyi məkanın sosial-iqtisadi həyatında aktiv fəaliyyət göstərir. Bu qurumlarda universitetin elm və təhsil xidmətləri və sosial aktivliyi ilə kiçik biznesin iqtisadiyyatı və rəqabət qabiliyyəti vahid bir arxitektura daxilində fəaliyyət göstərir. Vahid bir kompleksdə cəmlənmiş intellektual potensial və yüksək texnologiya tədqiqat universitetinin ümumi innovasiya strukturunu formalaşdırır. Biznes-məktəblərdə isə tələbələr əmək bazarı barəsində təsəvvür əldə edir, biznes-planların işlənməsində iştirakçı olur, kommersiya xüsusiyyətlərini inkişaf etdirir və sahibkarlıq fəaliyyəti üzrə təcrübə qazanırlar. Tərəfdaşlıq proqramları vasitəsilə universitetlərdə aparılan tədqiqatların maliyyələşdirliməsinə milli, bəzən də beynəlxalq biznes cəlb edilir. Tədqiqatların nəticələrindən istifadədə və istedadlı tələbələrin seçimində isə bu şirkətlərə üstünlük verilir.

Avropa təcrübəsinə görə elm, təhsil və iqtisadiyyat sisteminin arxitekturasının açar xarakteristikalarını aşkarlıq və sadəlik təşkil edir. Aşkarlıq anlayışına görə, bütün yaş dərəcələrindəki insanların ali təhsil almaq imkanlarının olması, ömürboyu təhsilin stimullaşdırılması və elm, təhsil sisteminin ölkənin sosial-iqtisadi qurumları və beynəlxalq əməkdaşlıq üçün açıq olması əsas götürülür. Sadəlik anlayışı isə elm və təhsilin təşkilati strukturunun sadələşdirlməsini, sahələrarası baryerlərin aradan qaldırılmasını, təhsil, elm və istehsalat müəssisələri arasında əməkdaşlıq və koordinasiyanı nəzərdə tutur. Başqa sözlə desək, elm, təhsil və iqtisadiyyat əlaqələrinin yeni arxitekturası üç milli strategiyanın vahid maraqlar çərçivəsində reallaşdırılmasına istiqamətləndirilir.

Avropa təcrübəsinə görə elm, təhsil və iqtisadiyyat proqramlarının operator funksiyası eyni vaxtda bir neçə təşkilata həvalə oluna bilər. Məsələn, təhsil və elmi-tədqiqatlar sahəsində operator funksiyasını Elm və Təhsil Nazirliyi ilə korporativ elmi-tədqiqat institutları, ekologiya və energetika sahəsində Ekologiya və Energetika nazirlikləri, sənaye klasterləri üzrə İqtisadi İnkişaf Nazirliyi və müvafiq investorlar operator funksiyalarını yerinə yetirə bilərlər.

Azərbaycanda Avropa ölkələrindən fərqli olaraq elm siyasəti və menecmentində çoxqütblük mövcuddur: universitet elmi Təhsil Nazirliyindən, elmlər akademiyasının institutları Elmlər Akademiyasının Rəyasət Heyətindən, korporativ elm müvafiq nazirliklər və şirkətlər tərəfindən, elmin layihə prinsipi əsasında maliyələşdirilməsi Dövlət Elm Fondu tərəfindən, tələbə qəbulu Dövlət İmtahan Mərkəzindən, elmi adların və dərəcələrin verilməsi Ali Attestasiya Komissiyası tərəfindənt həyata keçirilir. Əlbəttə ki, Avropa ali təhsil məkanına inteqrasiyanı qarşısında məqsəd qoymuş elm və təhsl sisteminin idarə olunmasında bu dərəcədə qütbləşmə xarakterik hal sayıla bilməz.

Bu kontekstdə cəmiyyətdə ən çox müzakirələrə səbəb olan məsələlərdən biri repititor-tam orta məktəb münasibətləridir. Universitetlərə hazırlıq həyata keçirən, valideyinlərin vəsaitləri hesabına maliyələşən və heç bir hüquqi əsası olmayan repetitorlar korpusu elmi, pedaqoji və hüquqi əsaslara söykənən, şagirdlərdə istedad və qabiliyyətin reallaşdırılması, onların müstəqil həyata və peşə seçməyə hazırlanması, fəal vətəndaş mövqeyinin formalaşdırılması, milli və ümumbəşəri dəyərlərə hörmətlə yanaşması, xarici dillərdən birində, yaxud bir neçəsində ünsiyyət saxlamasına təminat verən tam orta məktəb qarşısında maneəyə çevrilmişdir. Yuxarıdakı xüsusiyyətlərin əsasən formalaşmasının həyata keçirildiyi 8-11-ci siniflərin şagirdlərinin əksəriyyəti məktəb əvəzinə repetitor hazırlığına üstünlük verirlər. Bu isə öz növbəsində tam orta məktəbin deqradasiyasına, dövlət vəsaitinin isə səmərəsiz sərfinə gətirib çıxarır. Elmi, pedaqoji, hüquqi əsaslara və dövlət dəstəyinə söykənən tam orta məktəb, hətta özəl məktəblər belə repetitor rəqabətinə davam gətirə bilmirlər. Cəmiyyəti narahat edən bu problem yeni nazirliyin qarşısında duran vacib məsələlərdəndir.

Elm, təhsil və istehsalat əlaqələrində yüksək səmərəyə nail olunması üçün onun komponentlərinin inkişaf strategiyaları həmahəng olmalıdır. Bu gün milli elmin əsaslarını universitetlərin dövlətbüdcəli elmi-tədqiqat institutlarında, kafedralarda, elmi-tədqiqat laboratoriyalarında, magistratura və doktoranturada, Elmlər Akademiyasının institutlarında və sahə nazirliklərinin elmi müəssisələrində aparılan tədqiqatlar təşkil edir. Həmin qurumların tədqiqat istiqamətləri əsasən postsovet məkanı üçün səciyyəvi olan, çağdaş dövrün lokal və qlobal çağırışları ilə çox da səsləşməyən, sahibkarların ehtiyaclarına cavab verməyən, bilavasitə kafedralar, institutlar və ayrı-ayrı alimlərin elmi məktəbləri üçün səciyyəvi olan problemlərin həllinə yönəlmişdir. Halbuki ölkənin elm strategiyası iqtisadi və industrial modernləşməyə imkan verə biləcək elmi bazisin formalaşmasına yönəlməli, elmi tədqiqatların əsas problemləri ölkənin iqtisadi yüksəlişi üçün vacib olan çağırışlara istiqamətlənməlidir.

Ümumiyyətlə, elm, təhsil və iqtisadiyyat vektoru üzrə inkişafın milli strategiyasında elmi tədqiqatlar müasir cəmiyyətin qarşılaşdığı qlobal və lokal çağırışlara istiqamətləndirilməli, dövlət və biznes tərəfdaşlığı əsasında texnoloji inkişafın prioritet sahələri müəyyənləşdirliməli, sahibkarlıq fəaliyyəti və yüksək texnoloji kiçik şirkətlər stimullaşdırılmalı, tədqiqatlara və işləmələrə birbaşa xarici investisiyaların cəlb olunmasına diqqət artırılmalı və beləliklə, milli elm, təhsil və iqtisadiyyat ekosisteminin cazibədarlığı yüksəldilməlidir.

Bu gün Azərbaycan iqtisadiyyatı qarşısında iki arxiaktual məsələ durur: iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi və milli təhlükəsizliyin dayanıqlı və davamlı təminatı. Bu baxımdan dövlət büdcənin formalaşmasında aparıcı rol oynayan neft-qaz sənayesinin və milli təhlükəsizliyin təminatçılarından olan hərbi-sənaye kompleksinin inkişafında yüksək texnoloji avadanlıqların və proqressiv texnologiyaların tətbiqinə diqqət artırılmalıdır. Təsadüfi deyil ki, Çin və Türkiyə kimi sürətli iqtisadi inkişaf nümayiş etdirən ölkələr artıq uzun müddətdir ki, yüksək texnoloji avadanlıqların istehsalında proqressiv texnologiyalar tətbiq edirlər. Bu mənada reversiv injinirinq, rəqəmsal surət (digital dublikat), rəqəmsal platforma, CALS texnologiyaları (Continuous Acquisition and Life cycle Support), additiv texnologiyalar, "yaşıl enerji", 7D və digər texnologiyalar ölkə iqtisadiyyatının inkişafı və şaxələnməsi baxımından geniş maraq doğurur. Elm və Təhsil Nazirliyi bu qəbildən olan innovativ sahələr üzrə tədqiqatların aparılmasına və mütəxəssis hazırlığının həyata keçirilməsinə xüsusi diqqət verməlidir.

Bu gün elm, təhsil və istehsalat əlaqələrnin beynəlmiləlləşdirilməsinə böyük ehtiyac vardır. Ali təhsil həm də böyük perspektivli təhsil xidmətləri bazarıdır. Həmin bazarın genişləndirilməsi digər ölkələrlə qarşılıqlı sərfəli iqtisadi əməkdaşlığa, yeni informasiya mənbələrinin, texnoloji platformaların əldə edilməsinə və ölkə büdcəsinə əlavə vəsaitlərin daxil olmasına şərait yaradardı. Ölkə universitetlərinin elmi-pedaqoji potensialının kifayət qədər yüksək olmasına baxmayaraq, elmi nəticələrin kapitallaşmasından gələn gəlir cüzidir, təhsil, elm və istehsalat müəssisələri arasında qarşılıqlı fəaliyyət lazımi səviyyədə formalaşmamışdır, yeni texnologiyalardan kifayət qədər istifadə edilmir. Bununla belə, nazirlik və universitet rəhbərlikləri ölkənin elmi-pedaqoji potensialının aparıcı qüvvəsini təşkil edən, mövcud elmi məktəblərin və təhsil proqramlarının yaradıcıları olan, beynəlxalq təcrübəyə malik, ölkə sərhədlərindən kənarlarda tanınan və qəbul edilən yaşlı nəsil alim və müəllimlərin əməyindən çox həvəslə imtina edirlər. Halbuki mövcud texnoloji durumun irəli sürdüyü trendlərə vaxtında və keyfiyyətli cavab verə bilmək üçün ölkənin elm və təhsil potensialı tam səfərbər olunmalı, yaşlı nəsil alim və müəllimlərin qabaqcıl təcrübələrinin orta və gənc nəslə ötürülmə müxanizmləri inkişaf etdirilməli, elm və təhsildə yaş senzi aradan götürülməlidir.

Texnoloji inkişaf kontekstində dövlətin elm və təhsil siyasətinin əsasında iqtisadi imperativin durması vətəndaşın təhsil və informasiya almaq hüququnun reallaşdırılmasına, öz peşə fəaliyyətindən ayrılmadan əsas və ya əlavə təhsil ala bilməsinə xidmət etməlidir. Ənənəvi təhsil formalarından fərqli olaraq təhsil alan biliyə qoğru deyil, bilik təhsil alana doğru istiqamətləndirilməlidir. Vətəndaşın iş yerini itirmədən elm və texnologiyanın ən son nailiyyətləri üzrə ödənişli əsaslarla təkmilləşmə, ixtisasartırma, ikinci ixtisasalma, fasiləsiz təhsil, ömürboyu təhsil, yaşlıların təhsili, onlayn repetitorluq kimi əlavə təhsil ala bilməsinə şərait yaradılmalıdır. Bu sahədə xarici ölkə universitetlərinin aktiv intervensiyası və güclü rəqabəti hiss olunur. Yerli universitetlərin hər bir bakalavr, magistrant, doktorant, mühəndis-texniki işçi uğrunda mübarizə aparması lazım gəlir. Pandemiya dövründə özünü təsdiq etmiş distant təhsil texnologiyalarının daha da inkişafına diqqətin artırılması vacibdir. Bu gün ABŞ-ın MİT Coursera Distant Təhsil Mərkəzi 24 milyon istifadəçini, 2000-dən çox proqramı və 160 ixtisaslaşma üzrə 149 təhsil müəssisəsini təmsil edir. Distant təhsil platformasında təhsil mühiti video və audio mühazirələrdən, elektron dərsliklərdən, interaktiv testlərdən, forumdan, tələbə-tədris materialları-müəllim arasında qarşılıqlı fəaliyyəti təmin edə bilən texnologiyalardan bəhrələnməlidir. Adətən, bu mühit özündə dörd təhsil məkanını birləşdirir: videoteka, mediateka, virtual laboratoriya və onlayn repetitorluq. Distant təhsilin ölkə miqyasında tətbiqi üçün onun hüquqi basası yaradılmalı, pedaqoji və psixoloji problemlərin həllinə, elektron tədris vasitələrinin yaradılmasına, asinxron tədris texnologiyalarının tətbiqinə, təhsil portallarından və multiagentli texnologiyalardan istifadəyə diqqət artırılmalıdır.

Ölkədə dövlət himayəsinə ehtiyacı olan elm və təhsil müəssisələrinin sayı çoxdur. Bu da dövlət vəsaitlərinin qeyri-rasional bölgüsünə, elmin və təhsilin perspektiv istiqamətlərində maliyyə çatışmazlığına şərait yaradır. İri şirkətlər daxilində korporativ universitetlərin və elmi-tədqiqat müəssisələrinin yaradılması ilə bu problemin aradan qaldırılması mümkündür. Bu baxımdan SOCAR-ın nəzdində yaradılmış Ali Neft Məktəbinin qısa müddət ərzində ölkənin ən nüfuzlu ali məktəblərindən birinə çevrilməsi təcrübəsi xarakterikdir. Elmtutumlu texnologiyaların işlənməsində istifadə olunan laboratoriya və eksperimental avadanlıqların fiziki və mənəvi köhnəlməsi, yeni avadanlıqların isə yüksək dəyəri ali məktəblər arasında kollektiv istifadə mərkəzlərinin yaradılmasına diqqəti artırmalıdır. Klaster tipli regional və sahə strukturlarının yaradılması isə elm və təhsil qurumlarının ölkə ərazisində nizamla paylanmasına xidmət edə bilərdi.

Təhlilin nəticələri göstərir ki, dünya iqtisadiyyatını silkələyən qlobal istiləşmə, pandemiya, müharibələr, aparıcı dövlətlərin bir-birinə qarşı tətbiq etdikləri sanksiyalar və dünya bazarlarında kəskinləşən rəqabət yeni yüksək texnoloji məhsulların istehsalında və əhalinin həyat səviyyəsinin yüksəldilməsində intellektual kapitalı əsas aparıcı amilə çevirərək elm, təhsil və istehsalat əlaqələrinin inteqrsiyasına daha differensial yanaşma tələb edir. Bu baxımdan bir daha vurğulayaq ki, Elm və Təhsil Nazirliyinin yaradılması qlobal çağırışlar kontekstində vaxtında qəbul edilmiş qərardır.

***Həsən HÜSEYNOV,***
***professor, Əməkdar elm xadimi***

# Koronavirus təhlükəsi sovuşmaq bilmir

## Ötən həftə dünyada 4,5 milyondan çox insan yoluxub, 13 mindən çox adam ölüb




Koronavirus həyatımızın bir hissəsinə çevrilən virus kimi hələ də dünyanın əsas mübarizə apardığı pandemiyadır. Yoluxma saylarının son həftələrdə artmasının ardından ÜST son açıqlamasında bildirdi ki, ötən həftə koronavirus infeksiyasına 4,5 milyondan çox insan isə yoluxub, 13 mindən çox insan isə ölüb.

### Yeni peyvəndlər əvvəlkilərdən daha effektivdir

Mütəxəssislər yoluxma hallarının sayında xüsusilə əhəmiyyətli azalmanı Şərqi Aralıq dənizi regionu və Avropada qeydə alıblar. Həftə ərzində xəstəliyə ən çox yoluxma halları isə Yaponiyada müşahidə edilib.

ABŞ-ın Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzlərinin direktoru Roşel Valenski bildirib ki, koronavirusdan qorunmaq üçün "buster" dozada yeni hazırlanmış peyvəndlərdən istifadə olduqca əhəmiyyətlidir: "Belə ki, bu vaksin həm də virusa qarşı zəifləmiş immun sistemini yenidən bərpa etməyə kömək edir. Həmçinin "Omikron" və onun yeni variantlarına qarşı da qoruma gücünə malikdir. Nəzərə almaq lazımdır ki, bu peyvənd hərtərəfli elmi qiymətləndirmə, tədqiqat və müzakirələrdən sonra ictimaiyyətə təqdim edilib".

Xatırladaq ki, "Moderna" və "Pfizer" şirkətlərinin hazırladığı yeni peyvəndlər hüceyrələrdə COVID-19-a səbəb olan iki istiqamətə - koronavirusun orijinal ştamlarına və xüsusilə BA.4 və BA.5 subvariantlarına qarşı antikor yaradır. Yenilənmiş "buster" dozalı peyvəndi son dozadan iki ay sonra vurdurmaq tövsiyə edilir.

### Virusa yoluxmuş şəxslərdə qanın qatılaşması tez-tez müşahidə edilir

Son vaxtlarda koronavirusa yoluxmuş xəstələrin çoxunda qanın qatılığının artmasına tez-tez rast gəlinir. Kliniki Tibbi Mərkəzin Kardiologiya şöbəsinin müdiri Səbinə Babayeva açıqlamasında qeyd edib ki, qanın laxtalanma sistemi orqanizmin əsas qoruyucu sistemlərindən biridir: "Bu sistem qan damarlarında qanın daimi axmasını təmin edir. Eyni zamanda damar divarında zədələnmələri, qan laxtalarının əmələ gəlməsinə və orqanizmin qanitirmədən məhv olmasının qarşısının alınmasına xidmət edir. Lakin bəzən qanın bu müdafiə funksiyası təhlükəyə də çevrilə bilər. Çünki bir çox səbəblərdən qanın qatılığının artması orqanizmdə tromb əmələ gətirir. Bu isə orqanların qanla təchiz olunmasını çətinləşdirir".

Həkim vurğulayır ki, son zamanlar müraciət edən xəstələrin çoxunda, xüsusilə koronavirusa yoluxmuş şəxslərdə qanın laxtalanma sisteminin göstəricilərində qanın qatılığının artması lehinə dəyişikliklərə çox rast gəlinir. Əgər bu virusa yoluxan insanlarda digər ürək-damar sistemi xəstəlikləri varsa, onlara qandurulducu preparatlar təyin olunur.

Bundan əlavə, qan laxtalanma sistemində dəyişikliklər təbii səbəblərdən və xəstəliklərdən yarana bilər. Belə ki, çox isti havada, az maye qəbulu və çox tər ifrazının olması qanın laxtalanmasının artmasına səbəb olur. Son bir neçə ilin təhlükəsi olan koronavirus pandemiyası zamanı da qanın koaqulyasiya sistemində orqanizm üçün təhlükəli dəyişikliklərin yarandığı aşkar olunub. Bu səbəbdən də koronavirusla müalicə protokollarına qandurulducu preparatlar əlavə edilir.

S.Babayeva əlavə edir ki, pasiyentlərə bol maye qəbulu və aktiv həyat tərzi də tövsiyə olunur. Bəzi qida maddələri var ki, onlar qanın laxtalanma sisteminə müsbət təsir göstərir. "Omeqa-3" ilə zəngin qidalar - nar, zəncəfil, moruq, sarı kök və sitrus meyvələri bura daxildir. Ürək-damar sistemi, şəkərli diabet və hipertoniyalı xəstələrdə laxtalanma sisteminə nəzarət vacibdir. Mütəmadi həkim müayinələrinin aparılması xəstələrdə ağırlaşmaların qarşısını ala bilər.

***Aydan XƏLİLOVA,***
***"Azərbaycan"***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
struktur idarələrinə tələb olunan müxtəlif təyinatlı xortumların satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 8 sentyabr 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***



## OXUCULARIN NƏZƏRİNƏ!




*"Azərbaycan" qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*


# Rusiya "Şimal axını"nı dayandırdı

## Avropalılar qışda qaza qənaət rejimində yaşayacaqlar



Rusiyanın "Qazprom" şirkəti "Şimal axını" kəməri ilə qaz nəqlini üç gün müddətinə - sentyabrın 3-dək dayandıracağını açıqlasa da, sonradan kəmərin qeyri-müəyyən müddətə bağlandığını elan edib. Yəni Avropaya gedən magistral qaz kəməri planlaşdırıldığı kimi şənbə günü açılmayıb. "Qazprom" bunun səbəbini texniki nasazlıqla, konkret olaraq yağ sızması ilə izah edib.

### Şarl Mişel: "Biz enerji müstəqilliyinə gedən yolumuzu sürətləndirəcəyik"

Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov ölkəsinə qarşı sanksiyalara görə təbii qaz nəqlinin dayandığını, avropalı siyasətçilərin atdığı addımlar səbəbindən vətəndaşların külli miqdarda pul ödəməli olduğunu bildirmişdi.

"Qazprom" şirkəti sanksiyalar səbəbindən boru kəmərində istifadə edilən müxtəlif hissələrin təmir işlərinin mümkün ola bilməyəcəyini əsas gətirərək, boru kəməri ilə göndərilən təbii qazın miqdarını təxminən 80 faiz ixtisar etmişdi. Digər tərəfdən, "Qazprom" Parisin ödəniş etməməsi səbəbindən Fransaya qaz tədarükünü dayandıracağını açıqlamışdı.

Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Rusiyanın bu addımını belə qiymətləndirib: "Təəssüf ki, sürpriz olmadı. Qazdan silah kimi istifadə Aİ-nin qərarını dəyişməyəcək. Biz enerji müstəqilliyinə gedən yolumuzu sürətləndirəcəyik. Bizim vəzifəmiz vətəndaşlarımızı müdafiə etmək və Ukraynanın azadlığını qorumaqdır".

Lakin Moskva enerji təchizatından Qərb ölkələrinə qarşı iqtisadi silah kimi istifadə etdiyini təsdiqləmir. Kreml iddia edir ki, bunun günahkarı anti-Rusiya sanksiyalarıdır və bu, "Şimal axını-1"ə planlaşdırılmış texniki xidmətin vaxtında həyata keçirilməsinə imkan vermir.

Bu, Rusiyanın Ukraynaya müdaxiləsindən sonra boru kəmərinin bağlanması ilə bağlı ilk hadisə deyil. İyulda "Qazprom" 10 gün işini dayandırıb. Sonra tədarükləri bərpa edib, lakin daha kiçik miqyasda.

Onu da qeyd edək ki, "Qazprom"un qərarı "Böyük 7"lik ölkələrinin Rusiya neftinin qiymətini məhdudlaşdırmaq barədə razılığa gəldikdən qısa müddət sonra qəbul olunub.

Rusiya bu təşəbbüsü dəstəkləyən ölkələrə enerji ixrac etməyəcəyini bildirib. Buna cavab olaraq Avropa İttifaqı Rusiya qazının qiymətlərini məhdudlaşdırmağı təklif edib.

### Fransa bütün nüvə reaktorlarının fəaliyyətini bərpa etməyə hazırlaşır

Fransa hökuməti bu qış mümkün enerji çatışmazlığı problemini aradan qaldırmağa hazırlaşır. Fransa Müdafiə Şurasının enerji sektorundakı vəziyyətlə bağlı keçirilən iclasından sonra ölkə hakimiyyəti AES-lərdə profilaktik iş planında dəyişiklik edildiyini və bağlanan reaktorları bu ilin oktyabrında yenidən işə salmaq niyyətini açıqlayıb. Bu barədə danışan energetika islahatları naziri Anyes Panye-Rünaşenin dediyinə görə, bu günə kimi 32 reaktor bağlanıb, bəziləri korroziyaya, digərləri isə planlı təmirə görə. EDF şirkəti bütün 56 stansiyanı yenidən işə salmağı öhdəsinə götürüb. "Biz vəziyyəti diqqətlə izləyirik, həftədə bir dəfə hesabat alırıq, xüsusilə də buna nəzarət edirik ki, bu plan həyata keçirilsin".

Enerji nəhəngi EDF hesab edir ki, 27 reaktor dekabrın sonuna qədər, daha beş reaktor isə gələn il yanvar-fevralın ortaları arasında fəaliyyətini bərpa edə bilər.

Lakin Fransanın Nüvə Təhlükəsizliyi İdarəsinin rəhbəri Bernar Doroşşuk xəbərdarlıq edib ki, belə mürəkkəb proseslər üçün daha çox vaxt lazımdır.

Fransadakı atom elektrik stansiyaları elektrik istehsalının təxminən 70 faizini təşkil edir. Bu arada ölkənin Baş naziri Elizabet Born EDF-i mümkün qədər tez bir həll tapmağa çağırıb. O, həmçinin müəssisələri hakimiyyət orqanları ilə əməkdaşlıq edərək enerji resurslarına qənaət etmək yollarını nəzərdən keçirməyə çağırıb.

İstehlakın azaldılması planları oktyabrın əvvəlində təqdim olunacaq.

Öz növbəsində "Engie" qaz korporasiyası Fransanın yeraltı anbarlarının artıq 90 faiz dolu olduğunu bildirib. Şiddətli soyuqlar zamanı bağlanma məsələsi ortaya çıxacaq.

La-Manş kanalının o biri tərəfində Ukraynadakı müharibə fonunda ikirəqəmli inflyasiya müşahidə olunur. Yüz mindən çox insanı birləşdirən "Don't Pay UK" hərəkatı ingilislərə borclarını ödəməməyi təklif edir. Hərəkat liderləri oktyabrın 1-dən avtomatik pul köçürmələrinin dayandırılmasını tələb edirlər.

Hökumət çox enerji sərf edən cihazlarını qeyri-pik saatlarda işə salan sakinlərə endirim edəcəyini vəd edib. Belə ki, gecə yuyunmaq britaniyalılara hər kilovat-saat üçün 7 avroya (6 funt) qədər qənaət etməyə kömək edə bilər.

### Avropa ölkələrinin vətəndaşlar üçün güzəşt və imtiyazları

İspaniya parlamenti elektrik enerjisinə qənaət və Rusiya qazından istifadənin azaldılmasına yönəlmiş bir sıra qeyri-populyar tədbirlərin qəbul edilməsinə səs verib. Xüsusilə indi ictimai yerlərdə kondisionerləri 27°C-dən aşağı, qışda isitməni isə 19°C-dən yuxarı temperatura qoymaq olmaz.

İspaniyanın nəqliyyat naziri Raquel Sançes Ximenes bildirib ki, enerjiyə qənaət hər kəsə xeyir verər. Bu, qaz şantajına qarşı durmağa kömək edər, bu həm evdə, həm də sənaye sektorunda qənaətdir. Bunlar iqlim dəyişikliyi təhlükəsi qarşısında strateji tədbirlərdir.

Almaniyada fərdi ev təsərrüfatları üçün qaz ödənişləri ildə bir neçə yüz avro arta bilər. Federal hökumət bununla bağlı xəbərdarlıq edib. Tariflərin artırılması yanacağın istifadəsinə görə rüsumun tətbiqi ilə bağlıdır. Qanuna görə, təchizatçılar onu bir kilovat-saat üçün 1-5 avro arasında müəyyən edə bilərdilər. Alman Qaz İstismarçılar Birliyi ödənişin 2,4 sent olmasını müəyyən edib.

Yeni tariflər oktyabr ayından qüvvəyə minəcək. Güman edilir ki, bu addımlar enerji daşıyıcılarının bahalaşması, Rusiya qazının tədarükünün kəskin azalması və müvafiq olaraq spot bazarda daha yüksək qiymətlərlə yanacağın alınması zərurəti ilə əlaqədar şirkətlərin itkilərini azaldacaq.

Rüsumların tətbiqi ilə yanaşı, hökumət enerji idxalçılarına, xüsusən də bazarın ən böyük oyunçusu "Uniper"ə maliyyə yardımı edəcək.

Vitse-kansler Robert Habekin fikrincə, qaz tariflərinə yenidən baxılması yoxsul ailələr üçün ciddi sınaq ola bilər. Hökumət bu zərbəni ödəmək üçün vergi güzəştləri və kompensasiyalar layihəsi hazırlayacağını vəd edir.

Almaniya da oxşar məhdudiyyətlər tətbiq edib: bu aydan başlayaraq ictimai yerlərdə isti su kəsiləcək. Gecə saatlarında dəhlizləri və foyeləri qızdırmaq, həmçinin binaların fasadlarını işıqlandırmaq qadağan olunacaq.

Almaniyada ərzaq və enerji qiymətlərinin artmasının yaratdığı yüksək inflyasiya fonunda vətəndaşların vəziyyətini yüngülləşdirmək üçün tədbirlər də açıqlanıb. Belə ki, hakimiyyət orqanları verginin ödənildiyi həddi, o cümlədən ən yüksək dərəcənin tutulduğu gəlir səviyyəsini yüksəltməyi təklif edir. Həmçinin uşaq müavinətlərinin artırılması nəzərdə tutulur.

Maliyyə Nazirliyi gələn il vergi gəlirlərinin 10 milyard avro azalacağını gözləyir.

Nazir Kristian Lindnerin dediyinə görə, bir çox insan üçün gündəlik həyat həddən artıq bahalaşıb. Biz qaz, enerji və ərzaq qiymətlərinin bahalaşacağından ehtiyatlanırıq. Eyni zamanda ölkəmiz üçün iqtisadi mənzərə qeyri-sabit xarakter alıb, iqtisadi artım proqnozları açıqlanıb. Ona görə də hərəkətə keçməli olduğumuz bir vəziyyətdəyik.

Almaniya inflyasiyanın sürətləndiyi yeganə Avropa ölkəsi deyil. Danimarkada qiymətlər son bir ildə orta hesabla 13,2 faiz artıb ki, bu da 1982-ci ilin fevralından bəri ən yüksək illik artımdır.

Norveçdə statistikaya görə, son aylarda ərzaq və alkoqolsuz içkilərin qiymətləri 7,6 faiz artıb.

Yerli KİV-in məlumatına görə, gecə işıqlandırmasının azaldılması və mağazalarda temperatur hədlərinin təyin edilməsi ideyası Portuqaliyada da qəbul olunub. İndi ölkə hökuməti enerjiyə qənaət layihəsi hazırlayır və yaxın günlərdə əhaliyə təqdim olunacaq.

Xorvatiya qış mövsümündə evləri odunla qızdırmağa hazırlaşır. Hökumət odun üçün ƏDV-ni 5 faizə endirmək və günəş panelləri üçün bu vergini tamamilə ləğv etmək niyyətindədir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
Əhmədli qəsəbəsi 823-cü məhəllədə yerləşən Dənizçilik Kollecinin həyətyanı sahəsində futbol meydançası, nasosxana və soyunub-geyinmə otağının (eni 53 metr, uzunluğu 90 metr) layihələndirilmə xidmətinin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 13 sentyabr 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küç, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.**

***Tender komissiyası***



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
struktur idarələrinə tələb olunan dəniz təyinatlı polad təbəqələrin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 20 sentyabr 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
struktur idarələrinə tələb olunan santexnika mallarının satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 15 sentyabr 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***


# Liz Trass Böyük Britaniyanın yeni Baş naziridir

Dünən Liz Trass Böyük Britaniyanın Mühafizəkarlar Partiyasının rəhbəri və ölkənin Baş naziri seçilib. Bu barədə Londonda keçirilən mərasimdə Mühafizəkarlar Partiyasının sədri Endrü Stivenson və partiyanın Rəhbər Komitəsinin başçısı Qrem Bredi məlumat veriblər.



Bildirilir ki,Trassın namizədliyini mühafizəkarların əksəriyyəti dəstəkləyib. Səsvermə iyulun sonundan poçt vasitəsilə aparılıb.

Onun rəqibi iyulun 5-dək Maliyyə Nazirliyinin kansleri postunu tutan Rişi Sunak olub.

İlkin olaraq 12 mühafizəkar partiya sədri vəzifəsinə namizədliyini irəli sürüb.

Bu gün Liz Trass hökumət başçısı vəzifəsini tərk edən Boris Conson ilə birlikdə Kraliça II Elizabet ilə görüşmək üçün onun Şotlandiyadakı iqamətgahına - Balmoral qəsrinə gedəcəklər. Orada Conson rəsmi olaraq istefa verəcək və Kraliça Trassı Böyük Britaniyanın yeni Baş naziri təyin edəcək.

Beləliklə, Liz Trass II Elizabetin təyin etdiyi 15-ci Baş nazir olacaq.

O, evlidir və iki övladı var. Liz Trass ötən il sentyabrın 15-dən Böyük Britaniyanın xarici işlər naziri vəzifəsində çalışırdı.

O, Britaniya tarixində Marqaret Tetçer və Tereza Meydən sonra üçüncü qadın Baş nazirdir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## ALLAH RƏHMƏT ELƏSİN!

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi və kollektivi komitənin əməkdaşı Ruslan Əsgərova atası

**YUSİF ƏSGƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azərişıq" ASC-nin kollektivi Həmkarlar İttifaqı Birliyinin sədri Elşən Məcidova atası

**MƏCİD MƏCİDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin əməkdaşı Nərgiz Hacıyevaya anası

**PƏRNİSƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
***e-mail:***
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 6461**
**Sifariş 2511**
**Qiyməti 40 qəpik**